Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

13-15 İYUL 2019-cu il

№ 123 (4021)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİPƏRƏST KONQRESMEN ŞERMAN AZƏRBAYCANA QARŞI ALDIĞI MUZDLU SİFARİŞİ «LƏYAQƏTLƏ» İCRA ETDİ

səh. 8

Azərbaycan Rusiyadan Qarabağın "açarını" alır

səh. 9

KİVDF ilə Mədəniyyət Nazirliyi bu dəfə jurnalistləri "Nəsimi mövzusunda" sevindirdi

səh. 3

Rusiyadan Ermənistana növbəti qaz zərbəsi - qiymət 200 dollara qaldırıla bilər

səh. 10

Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin geniş kollegiya iclasını keçirdi

səh. 6

Avropa Şurası insan haqları komissarının Azərbaycandakı görüşlərinə fərqli baxışlar...

səh. 7

Bakıda keçirilən İslam sivilizasiyası simpoziumu Azərbaycan multikulturalizmini tamamlayan hadisə kimi...

səh. 12

Çindən gələn növbəti qatar dünyanın Azərbaycana marağını artırdı...

səh. 11

Nazir Əbülfəs Qarayevin sahibkarlara bir çağırışının əsasları...

səh. 13

Masallıdakı Vətən Müharibəsi abidəsinin işbazlara qurban getdiyi təsdiqlənir

səh. 14



səh. 5

## ATƏT PA-nın Lüksemburq iclasında Ermənistana misilsiz zərbə - Azərbaycan Ukrayna, Moldova və Gürcüstanla bir sıraya qoyuldu



ABŞ Konqresinin Qarabağ probleminin həlli ilə əlaqədar qəbul etdiyi maraqlı qətnamə - danışıqlar prosesinə real təsir olacaqmı...

səh. 8



Azərbaycan-Fransa əlaqələri yaxşılaşan kimi bu ölkədəki muzdlu erməni nökərlərinin «buynuzu çıxır»...

səh. 7

ABŞ - Türkiyə münasibətlərini çökdürən S-400-lərin Türkiyəyə gətirilməsinə başlandı

səh. 4

səh. 2

Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən tam 50 il ötdü



səh. 4

Rusiyanın Bakıdakı səfiri Boçarnikov bu yaxınlarda Moskvada səfərdə olmuş Azərbaycanın KİV rəhbərləri ilə görüşdü



səh. 5

Dünya birliyi iki mülki azərbaycanlının erməni girovluğundan çıxması üçün 5 ildə nə etdi...



səh. 13

Azərbaycana turist axını bu il də əhəmiyyətli dərəcədə artır, lakın Avropa turistləri hələ də azlıq təşkil edir...



səh. 15

Marketlərdə yararlılıq tarixi dəyişdirilərək satışa mallar ötürülür iddiası...



# "İslam sivilizasiyası Qafqazda" Beynəlxalq Simpozium iştirakçıları Prezident İlham Əliyevə müraciət etdilər

**İyulun 11-12-də Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb.**

"Trend"in məlumatına görə, müraciəti simpoziumun bağlanış mərasimində AİI rektoru Ceyhun Məmmədov oxuyub.

Müraciətdə deyilir ki, İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan tarixən müsəlman sivilizasiyasının yaranması və tərəqqisində mühüm rol oynayıb:

"Təsadüfi deyildir ki, Bəhmənyar Azərbaycani, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Seyid Yəhya Şirvani, Məhəmməd Füzuli və yüzlərlə başqa azərbaycanlı mütəfəkkirlər müsəlman aləmində elmi, fəlsəfi və ədəbi düşüncənin inkişafında müstəsna xidmətlər göstərmişlər. İslam mədəniyyəti Qafqazın digər bölgələrinə məhz Azərbaycandan yayılmışdır. Ulu öndər Heydər Əliyev "Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır" söyləməklə İslam sivilizasiyasının Qafqazda bərqərar olmasında Azərbaycanın oynadığı əhəmiyyətli rola diqqət çəkmişdir. İslamın Qafqazda yaşayan xalqların həyatındakı tarixi rolu və əhəmiyyətinə dərindən bələd olan Ümummilli Liderin birbaşa təşəbbüsü və iştirakı ilə 9-11 dekabr 1998-ci il tarixdə Bakıda "İslam Sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumu keçirilmişdir.

11-12 iyul 2019-cu il tarixdə Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium da məhz Heydər Əliyevin misilsiz ideyalarının həyata keçirilməsinə xidmət edir. Bu Simpoziumun keçirilməsi Azərbaycan Dövlətinin və şəxsən Sizin İslam mədəniyyətinə verdiyiniz qiymətin əyani təzahürüdür".

Müraciətdə qeyd olunur ki, müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi baxımdan sürətlə inkişaf edən Azərbaycan elm və mədəniyyət sahəsində də çoxsaylı nailiyyətlərə imza atır. Azərbaycan, artıq multikultural dəyərlərin xalq və dövlət səviyyəsində dəstəkləndiyi və beynəlxalq miqyasda təbliğ olunduğu ölkə kimi tanınır:

"2016-cı ili "Multikulturalizm İli" elan etməyiniz Sizin bu ali dəyərlərə yüksək münasibətinizin bariz nümunəsidir. Həqiqətən də qloballaşan dünyada monokultural mədəniyyət anlayışının multikultural düşüncə ilə əvəzlənməsi, mədəniyyətlərin öz "getto"larından çıxması bir zərurətə çevrilmişdir. Bu baxımdan, Azərbaycan Dövlətinin sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrdə multikulturalizmi önə çəkməsi zamanın çağırışları ilə səsləşir".



Müraciətdə bildirilir ki, 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında 10 yanvar 2017-ci il tarixli Sərəncamınız İslam dünyasının ən böyük ehtiyacını çox dəqiqliklə müəyyənləşdirdiyinizi göstərir. Bu Sərəncam dünyada getdikcə güclənən ksenofob və islamofob qüvvələrə tutarlı cavabdır, eyni zamanda, 2016-cı ilin "Multikulturalizm İli" elan olunması barədə 11 yanvar 2016-cı il tarixli Sərəncamının məntiqi davamıdır. Azərbaycan həm multikultural dəyərlərin tətbiqi və təbliği, həm də müsəlman aləmində vəhdət və qardaşlıq ideyalarının yayılması baxımından nümunəvi ölkədir.

Müraciətdə nəzərə çatdırılır ki, dünyada sülh, əmin-amanlıq və tolerantlığın carçısı olan Azərbaycan, təəssüf ki, bu dəyərləri heçə sayan Ermənistanın təcavüzü ilə üz-üzə qalmış, torpaqlarının 20 faizi işğal edilib, bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından didərgin salınıb. İşğal altındakı torpaqlarda yüzlərlə İslam mədəniyyəti nümunəsi məhv edilmiş, məscid və türbələr dağıdılıb:

"Simpozium iştirakçıları olaraq, dünya ictimaiyyətinin bu vandalizmə biganə qalmayacağına, Azərbaycanın haqlı səsinə səs verəcəyinə ümidvarlığımızı bildiririk. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir. Möhtərəm cənab Prezident! Biz "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları bu beynəlxalq tədbirə göstərdiyiniz qayğı və diqqətə görə bir daha Sizə öz dərin minnətdarlığımızı bildirir, Azərbaycanda və dünyada sülh və əmin-amanlığın qorunması, ölkəmizin inkişafı və çiçəklənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayırıq".

Qeyd edək ki, iyulun 11-də Bakıda "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu öz işinə başlayıb. II Beynəlxalq Simpoziumda 100-dən çox məruzəçinin məruzələri 11 paneldə dinlənilib.

# Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən tam 50 il ötdü

***Əli Həsənov:** "... müasir Azərbaycan Heydər Əliyevin yadigarı və şah əsəridir"*

**Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirilib. "Trend"in məlumatına görə, tədbirin keçirilməsində əsas məqsəd Azərbaycanda dövlət gənclər siyasətinin banisi olan Heydər Əliyevin ölkə gənclərinə göstərdiyi diqqət və qayğını bir daha nümayiş etdirməkdir.**



Tədbirdə çıxış edən Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov bildirib ki, Heydər Əliyev 1923-2003-cü illərdə yaşayıb fəaliyyət göstərib, öz qlobal düşüncə tərzi və bəşəri fəaliyyəti, müdrik və uzaqgörən siyasəti, unikal liderlik keyfiyyətləri, güclü milli iradəsi, xüsusi idarəçilik istedadı və rəhbərlik bacarığı ilə Azərbaycanda Ümummilli Lider səviyyəsinə yüksəlib və dünya tarixinə düşmüş görkəmli siyasi və dövlət xadimi, qüdrətli tarixi şəxsiyyət olub.

Əli Həsənovun sözlərinə görə, Heydər Əliyev öz fitri istedadını, dərin zəkasını, bilik və bacarığını daim bütün azərbaycanlıların qəlbində yaşayan milli dövlətçilik ideyalarının gerçəkləşməsinə yönəldib, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarıb və dinamik inkişafını təmin etmiş böyük azərbaycanlı olub:

"Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq onu bütün həyatı boyu fərqləndirib. İstər sovet hakimiyyəti zamanı işlədiyi və fəaliyyət göstərdiyi bütün sahələrdə, istərsə də müstəqillik dövründə Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət edib, ölkəni geridə qalmış aqrar respublikadan güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirib, onun sosial-iqtisadi və mədəni tərəqqisini təmin edib, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli elitanın formalaşdırılması, sağlam və intellektul gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanıb.

1990-cı ilin əvvəllərində, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda milli-vətəndaş qarşıdurmasının vüsət aldığı, etnik separatizmin baş qaldırdığı, torpaqlarımızın bir-birinin ardınca işğal olunduğu, ölkənin daxildən və xaricdən ciddi xaos və anarxiyaya sürükləndiyi, sosial-siyasi böhranın günü-gündən dərinləşdiyi bir vaxtda Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadan geri qayıdıb, doğma Vətənində milli-vətəndaş birliyinin yaradılması, dövlətçiliyin xilası və qorunması, ölkənin müstəqilliyin bərpası istiqamətində əsl tarixi missiya həyata keçirib".

Prezidentin köməkçisi bildirib ki, nə qədər ağır və çətin olmasına baxmayaraq, Heydər Əliyevin 1990-1993-cü illərdəki fəaliyyəti - öz xalqının milli azadlıq və müstəqillik uğrundakı mübarizəsinə qoşulması və faktiki olaraq müstəqillik uğrunda mübarizə hərəkatına rəhbərlik etməsi dövrü Azərbaycan dövlətçiliyinin və milli tariximizin parlaq səhifələrini təşkil edir:

"1993-cü ildə Azərbaycan dövlətçiliyinin çətin sınaqlar qarşısında dayandığı, məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda Heydər Əliyev xalqın çağırışına səs verərək, onun tələbi və dəstəyi ilə yenidən ölkə rəhbərliyinə qayıtmış və xüsusi qurtuluş missiyası həyata keçirərək, milli dövlətçiliyin XİLASKARINA çevrilib.

Sonrakı 10 il müddətində - 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasında Heydər Əliyevin rəhbərliyi altında milli inkişafın əsasları yaradılmış - daxili sabitlik, qanunçuluq, sosial ədalət, milli həmrəylik təmin edilmiş, Azərbaycanın daxili və xarici siyasətinin, dövlət idarəçiliyinin, yeni iqtisadi, siyasi və sosial münasibətlərin, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin əsasları formalaşdırılmış, bütün sahələr üzrə ölkənin inkişaf strategiyası hazırlanmış və həyata keçirilmişdir. Heydər Əliyev bu mərhələdə həlledici tarixi xidmət və uğurlu fəaliyyət göstərərək həm də müstəqil Azərbaycan dövlətinin banisi və qurucusuna çevrilib.

Hazırda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti "öz doğma xalqına sədaqətli xidmətin və onun yolunda hər cür fədakarlığa hazır olmanın" əsl nümunəsinə çevrilib".

Ə.Həsənov vurğulayıb ki, ulu öndərin öz dəyərini həmişə saxlayacaq uzaqgörən siyasəti, parlaq dühası və zəngin irsi Azərbaycanın uğurlu inkişafının təməlində dayanır. Bu gün dinamik inkişaf edən, region və dünya siyasətində, əksər transmilli layihələrdə öz dəst-xətti ilə seçilən müasir Azərbaycan Respublikası Heydər Əliyevin yadigarı və şah əsəridir:

"Hər bir vətənsevər azərbaycanlının ümummilli liderin unudulmaz və əziz xatirəsi qarşısındakı müqəddəs borcu müstəqil və qüdrətli Azərbaycan dövlətini qorumaq və daha da inkişaf etdirməkdən ibarətdir.

Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasının, milli dövlətçilik təfəkkürünün, peşəkar idarəçilik təcrübəsinin, zəngin siyasi irsinin və onun birbaşa xidmətləri sayəsində tamamlanaraq milli ideologiya səviyyəsinə qaldırılmış azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və hərtərəfli inkişaf etdirilməsi Azərbaycan elitası qarşısında dayanan əsas vəzifələrdəndir".

Tədbirdə daha sonra Gənclər və İdman Nazirliyinin təşəbbüsü və sifarişi ilə "MZ Prodakşn" tərəfindən istehsal olunan "Ulu öndər" sənədli filminin və eyni adlı mahnının təqdimatı keçirilib.

Filmin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, professor Rafiq Quliyev, redaktoru İradə Sultanovadır. Filmdə Heydər Əliyevin 1969-cu ildən 2003-cü ilədək həyat və fəaliyyətinin müxtəlif dövrünü əhatə edən kadrlar nümayiş olunub, Azərbaycan gənclərinə verdiyi tövsiyələr səsləndirilib.

"Ulu öndər" mahnısının musiqisi Azərbaycan Milli Konservatoriyasının rektoru, bəstəkar Siyavuş Kərimiyə, sözləri Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi Rafiq Yusifoğluya aiddir.

# KİVDF ilə Mədəniyyət Nazirliyi bu dəfə jurnalistləri "Nəsimi mövzusunda" sevindirdi

**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkil etdiyi "Nəsimi ili": klassik irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıb.**

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilən tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, Fondun icraçı direktoru Vüqar Səfərli, nazirliyin məsul vəzifəli şəxsləri, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak edib.

Tədbirin əvvəlində "Mədəniyyət" qəzetinin yeni çapdan çıxmış "İmadəddin Nəsimi - 650" adlı xüsusi buraxılışı haqqında məlumat verilib. Qeyd olunub ki, nəfis tərtibatlı, 48 səhifədən ibarət xüsusi buraxılış dahi şairin yubileyinə, "Nəsimi ili"nə töhfə olmaqla bərabər, respublikamızda, eləcə də xarici ölkələrdə bu mövzuda keçirilən tədbirləri, mədəniyyət layihələrini məcmu halda oxuculara təqdim edir.

Sonra təşkil olunmuş ədəbi-bədii kompozisiyada İmadəddin Nəsiminin mükəmməl qəzəlləri səsləndirilib, habelə muğam ifaçılarının çıxışları dinlənilib.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev bildirib ki, nazirliyin hər il Milli Mətbuat Günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə fərdi jurnalist yazıları müsabiqəsi keçirməsi ənənəvi hal alıb: "Builki təqdimat keçən illərdəkindən bir sıra nüanslarına görə fərqlənir. Çünki bu müsabiqə böyük Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunub. Onu da diqqətinizə çatdırım ki, "Nəsimi ili" ilə bağlı keçirilən tədbirlər bununla yekunlaşmayacaq. Şəhər və rayonların mədəniyyət müəssisələrində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, kitab sərgiləri və digər tədbirlər ilin sonuna kimi davam edəcək".

Nazir həmçinin qeyd edib ki, dahi şairin yubileyi və "Nəsimi ili"nin bu ilə təsadüf etməsinin xüsusi əhəmiyyəti var: "İki gün sonra biz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyini qeyd edəcəyik. O vaxt Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bu gün nə Nəsiminin yubileyini belə təmtəraqla, beynəlxalq səviyyədə qeyd edərdik, nə də başqa dahilərimizi dünyaya tanıda bilərdik. Məlumdur ki, Azərbaycan xalqının keçdiyi yola bəşəriyyətin verdiyi qiymət heç də hər zaman istədiyimiz kimi olmamışdır. Ona görə də Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə qayıdışı dünyaya sübut edir ki, biz böyük mədəniyyətə malikik".

Əbülfəs Qarayev bildirib ki, ümummilli lider Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyə gəldikdən sonra ilk addımlarından biri Nəsiminin adının UNESKO-da tanıdılması olub. Ulu öndərin təşəbbüsü və səyləri ilə 1973-cü ildə dahi şairin anadan olmasının 600 illiyi UNESKO-da təntənə ilə qeyd olunub: "İndi isə UNESKO-nun mötəbər tədbirləri Azərbaycanda keçirilir. Bu da Azərbaycanın yarım əsrdə keçdiyi möhtəşəm inkişaf yolunun göstəricisi, ölkəmizlə bu təşkilat arasında əlaqələrin möhkəm özülünün təsdiqidir".

Daha sonra nazir müsabiqədə qalib olan jurnalistləri təbrik edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra müsabiqənin nəticələri barədə danışmaq üçün söz Fondun icraçı direktoru Vüqar Səfərliyə verilib. Tədbir iştirakçılarını salamlayan Vüqar Səfərli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsini, dahi şairin 650 illik yubileyinin rəsmi səviyyədə qeyd olunmasını xalqımızın zəngin milli-mənəvi dəyərlərinin formalaşmasında böyük xidmətləri olan şəxsiyyətlərə yüksək diqqət və qayğı nümunəsi kimi dəyərləndirib. İcraçı direktor "Nəsimi ili" çərçivəsində şairin zəngin irsinin araşdırılması və təbliğinin ümumən Azərbaycanın mədəni-mənəvi irsinin dünyada dolğun şəkildə çatdırılması baxımından əhəmiyyətini xüsusi vurğulayıb. Vüqar Səfərli Fondun "Nəsimi ili" çərçivəsində planlaşdırdığı digər layihələr barədə də məlumat verib.

Çıxışını davam etdirən Vüqar Səfərli Fondun Mədəniyyət Nazirliyi ilə indiyə qədər də birgə müsabiqələr təşkil etdiyini, bu müsabiqələrin jurnalistlərin peşəkarlığının yüksəldilməsi, sosial vəziyyətinin yaxşılaşdırılması və yaradıcı əməyinin stimullaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkib. Vüqar Səfərli fərdi jurnalist yazıları müsabiqəsinin təşkilinə verdiyi dəstəyə, habelə media və mərkəzi icra hakimiyyəti orqanları arasında əməkdaşlığın genişləndirilməsində fəal roluna görə nazir Əbülfəs Qarayevə təşəkkürünü bildirib.

İcraçı direktor "Nəsimi ili": klassik irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinə 23 kütləvi informasiya vasitəsindən 36 yazının təqdim edildiyini diqqətə çatdırıb. Bildirib ki, müsabiqənin ekspertlər tərəfindən qiymətləndirilmiş yekun nəticələrinə əsasən 6 nəfər əsas, 10 nəfər həvəsləndirici mükafatlara layiq görülüb: "Müsabiqənin şərtlərinə əsasən, I yer üçün 1 nəfər olmaqla 1000, II yer üçün 2 nəfər olmaqla 800, III yer üçün 3 nəfər olmaqla 500 manat mükafatın verilməsi nəzərdə tutulur. Bundan əlavə, 10 nəfər yazı müəllifinə 200 manat məbləğində pul mükafatı veriləcək".

Vüqar Səfərli qalibləri və qarşıdan gələn Milli Mətbuat Günü ilə əlaqədar bütün media nümayəndələrini təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb.

Tədbiri yekunlaşdıran mədəniyyət naziri Əbülfəs Qarayev birgə müsabiqənin təşkilinə və KİV-lə əməkdaşlığın genişləndirilməsindəki xidmətlərinə görə Fondun rəhbərliyinə minnətdarlığını bildirərək, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.













# Rusiyanın Bakıdakı səfiri Boçarnikov bu yaxınlarda Moskvada səfərdə olmuş Azərbaycanın KİV rəhbərləri ilə görüşdü

*"Mən həmişə Azərbaycan mətbuatına açıq olmuşam"*

**İyulun 11-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov bu yaxınlarda Moskvada səfərdə olmuş Azərbaycanın bir sıra aparıcı KİV-lərinin (AZƏRTAC və "Trend" informasiya agentlikləri, "Səs", "İki sahil", "Bakinski raboçiy", "Kaspi", "Xalq qəzeti" və "Bakı-Xəbər" qəzetlərinin) rəhbərləri ilə görüş keçirib.**

Baki-xeber.com AZƏRTAC-a istinadən xəbər verir ki, nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Trend"in baş direktoru İlqar Hüseynov, Azərbaycanın "Novoe Vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Bakinski raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev və başqaları Rusiya paytaxtında keçirilən görüşlərlə bağlı təəssüratlarını bölüşüblər. Qeyd olunub ki, səfərin məqsədi rusiyalı həmkarlarla təcrübə mübadiləsi, həmçinin hər iki ölkənin jurnalistlərini narahat edən aktual və mühüm mövzuların müzakirəsi olub.

Vüqar Səfərli vurğulayıb ki, Azərbaycan və Rusiyanın media strukturlarının qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin möhkəmlənməsinə və eyni zamanda, jurnalistlərə öz fəaliyyətini və imkanlarını yenidən nəzərdən keçirməyə imkan verir.

O xatırladıb ki, rusiyalı jurnalistləri bu ilin sonunadək Azərbaycana səfər etməyə dəvət edib.

Mətbuatın hökumətlə vətəndaş cəmiyyəti arasında körpü rolu oynadığını qeyd edən nümayəndə heyətinin üzvləri əmin olduqlarını bildiriblər ki, Moskva səfəri iki ölkənin xalqlarının bir-birini daha yaxşı tanıması və başa düşməsi, eyni zamanda, jurnalist təşkilatları arasında əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

KİV rəhbərləri rusiyalı həmkarları ilə təcrübə mübadiləsində maraqlı olduqlarını bildiriblər. Burada bir sıra amillər - ortaq dəyərlər, coğrafi yaxınlıq, tarixi əlaqələr mühüm rola malikdir. Vurğulanıb ki, Moskvada keçirilən bütün görüşlərdə Rusiyanın aparıcı informasiya və xəbər agentliklərinin rəhbərləri Azərbaycan haqqında xoş fikirlər səsləndirib və bizim jurnalist strukturları ilə əlaqələri inkişaf etdirməyə hazır olduqlarını bildiriblər.

Çıxış edənlər bildiriblər ki, hazırda Azərbaycanla Rusiya arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Vurğulanıb ki, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin təmin edilməsində dövlət başçılarının böyük rolu var.



Mixail Boçarnikov azərbaycanlı jurnalistlərin Rusiya paytaxtına səfərinin təşkilində göstərdikləri köməyə görə KİV-in İnkişafına Dövlət Dəstəyi Fonduna, Azərbaycan Prezidentinin Administrasiyasına, Azərbaycanın Moskvadakı səfirliyinə, xüsusən səfir Polad Bülbüloğluna təşəkkürünü bildirib. Səfir Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq səviyyəsində əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma zəminində münasibətlərin bütün sahələr üzrə möhkəmləndiyini qeyd edib. O xatırladıb ki, ölkəmizdə səfir kimi fəaliyyət göstərdiyi cəmi bir il ərzində həmişə Azərbaycan mətbuatına açıq olub.

Səmimi və dostluq şəraitində keçən görüşdə Azərbaycan və Rusiyanın media strukturları arasında əməkdaşlığın möhkəmlənməsi və dərinləşməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda xatirə fotosu çəkilib.

# ABŞ - Türkiyə münasibətlərini çökdürən S-400-lərin Türkiyəyə gətirilməsinə başlandı

**S-400 raketdən müdafiə sistemlərinin ilk partiyası Türkiyəyə gətirilib. Baki-xeber.com xəbər verir ki, bu barədə Türkiyənin Müdafiə Nazirliyi məlumat yayıb.**

Uzaqmənzilli raketdən müdafiə komplekslərini gətirən üç Rusiya təyyarəsi Ankara vilayətində yerləşən Mürtəd aviabazasına enib.

Xarici işlər naziri Mövlud Çavuşoğlu məsələ ilə bağlı açıqlama verərək, heç bir problemin olmadığını deyib: "Biz S-400-lər (Rusiyanın raket əleyhinə müdafiə sistemləri) barədə hərtərəfli razılığa gəldiyimizi, bu razılaşmanın yekunlaşdığını və prosesin davam etdiyini həmişə deyirdik. Biz uçuşlara icazə, uçuşların kimlər tərəfindən icra ediləcəyi kimi məsələləri koordinasiya edirik və proseslər davam edir".

Rusiya da S-400 sistemlərinin göndərilməsinə başlandığını təsdiqləyib.

Türkiyə bu gün S-400 sistemlərini öz ərazisində qəbul edən sayca üçüncü, bu sistemə sahib olan dördüncü ölkə oldu. Suriyada da S-400 sistemləri var, ancaq bunlar bu ölkədəki rus bazasında saxlanır, yəni birbaşa Rusiyanın öz nəzarətindədir.

Türkiyə NATO tarixində də bir ilkə imza atdı. Qardaş ölkə ABŞ-ın havadan müdafiə sistemi "Patriot" və Rusiyanın S-400 sistemlərini öz ərazisində yerləşdirən yeganə ölkə kimi tarixə düşdü.

Qeyd edək ki, hazırda "İncirlik" hərbi hava bazasında NATO çərçivəsində İspaniyaya aid "Patriot" sistemləri yerləşdirilib.

NATO üzvü olmayan, ancaq ABŞ-la müttəfiq olan Hindistan və Səudiyyə Ərəbistanı da Moskva ilə S-400 razılaşması əldə edib və sistemlərin təslim edilməsini gözləyir.

Rusiya ilə silahla bağlı razılıq Türkiyənin üzvü olduğu və Moskva ilə yaxınlaşmasından ehtiyat edən NATO-nun narahatlığına səbəb olub və təslimatla bağlı ilk reaksiya da alyansdan gəlib.



Qeyd edək ki, Türkiyə Birləşmiş Ştatların 2 milyarddan baha başa gələn bir razılaşmanı geri çəkmək tələbini rədd edib. Birləşmiş Ştatlar Türkiyəni mümkün sanksiyalarla üzləşəcəyi və F-35 qırıcı təyyarələrinin istehsal konsorsumundan çıxarılacağı, itirilmiş müqavilələrə görə bunun Türkiyəyə milyardlarla dollara başa gələcəyi barədə xəbərdarlıq edib.

# ATƏT PA-nın Lüksemburq iclasında Ermənistana misilsiz zərbə - Azərbaycan Ukrayna, Moldova və Gürcüstanla bir sıraya qoyuldu

**ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyasında qəbul edilən Yekun Deklarasiyada Azərbaycanın təklifləri nəzərə alınıb. Milli Məclisin son plenar iclasında parlamentin vitse-spikeri Bahar Muradova məlumatı təsdiqləyib. O qeyd edib ki, müzakirə olunan bəyannamənin 22-ci maddəsində yer alan müddəa neçə gün idi ki, müzakirələrə səbəb olub:**




## *Qabil Hüseynli: "ATƏT PA-nın qəbul etdiyi son sənəd çox mükəmməldir"*

"Bu, Ermənistanda çox ciddi qarşıdurmalara, müzakirələrə səbəb olub. Həmin maddədə nəzərdə tutulur ki, ilk dəfə olaraq Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova ərazisində olan konfliktlərə eyni prizmadan yanaşılmalıdır. Bilirsiniz ki, bundan əvvəl 3 ölkənin adı başqa bir maddədə çəkilirdi. Azərbaycandakı mövcud problemə yalnız Dağlıq Qarabağ konflikti adı ilə başqa maddədə münasibət bildirilirdi. İrəli atılan ən vacib və güclü addım məhz bu məsələlərin bir maddədə toplanması və vahid prizmadan dəyərləndirilməsi idi. ATƏT PA razılaşdırılmış format daxilində tərəflərin ilkin şərti olmadan ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanaraq, Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovada konfliktləri hərtərəfli və dayanıqlı, sülh əldə etmək məqsədilə konkret nəticələrə yönəlik müzakirə və danışıqları aktivləşdirməyi tövsiyə edir".

Qeyd edək ki, Azərbaycan diplomatiyasının əldə etdiyi bu nailiyyətə Ermənistandan aqressiv münasibət bəslənir. Onların daxili auditoriyasında qəbul edilmiş sənədi Ermənistanın səriştəsiz diplomatik fəaliyyətinin nəticəsi kimi qəbul edirlər. Bu yenilik konfliktin həllinə nə kimi töhfələr verə bilər?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bu prosesi böyük diplomatik qələbə adlandırdı: "Biz indiyə qədər ikili standartlardan, bəzən emosiyaya varıb xristian təəssübkeşliyindən bəhs edirdik.** Bu məsələlərdə səhv etmirdik. Görürdük ki, postsovet məkanında olan münaqişələrə tamamilə fərqli yanaşma var. Mahiyyət eyni olsa da, hamısı Kreml tərəfindən yaradılsa da, nədənsə, Avropa institutları məsələyə fərqli yanaşma ortaya qoyurdular. Sanki belə çıxırdı ki, bölgənin aborigen xalqı olmayan ermənilər torpaqlarının əsl sahibidirlər. Bütün mənbələr təsdiq edir ki, ermənilərin bölgəyə köçürülməsi son 200 ildə yaşanıb. Bunu hətta rus mənbələri birmənalı olaraq təsdiqləyirlər. Postsovet məkanında olan ikili yanaşmanın əsası çox əvvəl qəbul edilən sənədlərlə başladı. Sonra ermənilərin fəal təbliğatı nəticəsində Dağlıq Qarabağ probleminə fərqli don geyindirildi. Sanki bunu başqa mahiyyət daşıyan bir münaqişə kimi digər postsovet ölkələrindən ayırdılar. Dağlıq Qarabağa gələndə ərazi bütövlüyü ilə yanaşı, xalqların öz müqəddəratını təyin etmə məsələsini də qabardırdılar. Son dövrlər Azərbaycanın uğurlu xarici siyasəti bu istiqamətdə irəliləyişin yaranmasına səbəb oldu. 2013-cü ildən başlayaraq mötəbər qurumlar, birmənalı olaraq, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlarla çıxış etdilər. Biz bunu NATO, Avropa Birliyinin rəsmi bəyanatlarında gördük. Bu günlərdə Bakıda səfərdə olan Avropa Şurasının rəsmisi Tusk açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi. Artıq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllindən başqa variantın mümkün olmadığını həmin qurumlar rəsmən təsdiq edirlər. Bu prinsipial və dəqiq ifadə olunan fikirlər münaqişənin həllinə öz təsirini göstərəcək. Çünki heç bir istisnalar olmadan həmin ərazinin Azərbaycana məxsusluğu təsbit olunur.

*"Mən bunu alqışlayıram və Azərbaycan diplomatiyasının böyük uğuru sayıram"*

ATƏT PA-nın qəbul etdiyi son sənəd çox mükəmməldir. Mən bunu alqışlayıram və Azərbaycan diplomatiyasının böyük uğuru sayıram. Bu, imkan verəcək ki, problemlərin həllinə vahid yanaşma ortaya qoyulsun".

***Məhəmmədəli QƏRİBLİ***

# Dünya birliyi iki mülki azərbaycanlının erməni girovluğundan çıxması üçün 5 ildə nə etdi...

**2014-cü il iyulun 11-də Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüb, Azərbaycan vətəndaşı Həsən Həsənov isə öldürülüb.**



## *Əhməd Şahidov: "Beynəlxalq təşkilatların bu məsələdə Ermənistana təsirləri yetərli səviyyədə deyil"*

2014-cü il oktyabrın 2-də Həsən Həsənovun nəşi qarşı tərəfdən alınıb və oktyabrın 4-də o, Bakının Binəqədi qəbiristanlığında dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda qurulan qanunsuz "məhkəmə"nin qərarı ilə Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edildilər. 2015-ci ildə girovlarımızla bağlı İnsan Haqları üzrə Avropa Məhkəməsinə müraciət edilib. Avropa Şurasının baş katibinə, habelə qurumun insan hüquqları üzrə müvəkkilinə də çağırışlar edilərək bu 2 azərbaycanlı girovun dərhal və qeyd-şərtsiz azad olunması üçün müvafiq addımlar atılması istənilib. Lakin heç bir müraciətə məhəl qoyulmur, girovlar hələ də zorakılığa məruz qalırlar. Rəsmi Bakının təklif etdiyi "Hamının hamıya" prinsipi üzrə əsir və girovların dəyişdirilməsinə qarşı tərəf razılaşmır.

Bütün bunların fonunda, beynəlxalq qurumların onların azad edilməsi ilə bağlı Ermənistana təzyiqlərini yetərli saymaq olarmı?

**Məsələyə münasibət bildirən Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov beynəlxalq qurumların bu yöndə fəaliyyətini qənaətbəxş hesab etmədiyini bildirdi:** "Əvvəla azərbaycanlı əsir və girovların azad edilməsi ilə bağlı Azərbaycan tərəfi kompleks işlər aparır. Bu işlər iki planda aparılır. O cümlədən, Dilqəm Əsgərovla Şahbaz Quliyevin azad edilməsi ilə bağlı da işlər görülür. İlk növbədə həmin mülki girovların qısa bir zaman ərzində azad olunması vacib məsələdir. Çünki müddətin uzanması onların səhhətinə mənfi təsir edir. Bu baxımdan, Azərbaycan dövləti, Xarici İşlər Nazirliyi, Prezident Administrasiyası, ölkə başçısı cənab İlham Əliyev, vətəndaş cəmiyyəti və mətbuat bu yöndə intensiv iş aparır. Bütün mümkün beynəlxalq tribunalarda Ermənistanı ifşa etmək və dünya ictimaiyyətinin diqqətini Qarabağ münaqişəsinə çəkmək yönündə səylər göstərilir. Bu istiqamətdə son 5 ildə Azərbaycan kifayət qədər gərgin, faydalı bir təcrübə keçmiş oldu. Beynəlxalq təşkilatların bu məsələdə Ermənistana təsirləri yetərli səviyyədə deyil. Beynəlxalq təşkilatlar, ictimaiyyət hər zaman Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan həqiqətlərinə ikili standartlardan yanaşır. Bir növ, Dağlıq Qarabağ münaqişəsində, Azərbaycanın ərazi bütövlüyü məsələsində çalışıb ki, hər zaman ölkəmizə qarşı "üç meymun" oynunu oynasın. Ancaq Azərbaycanın artan siyasi gücü, regional əhəmiyyəti və davamlı şəkildə beynəlxalq platformalarda bu mövzunu təkrar-təkrar qaldırması bu məsələdə müəyyən effekt verir. Yəni, bir növ, onları bu məsələyə diqqət göstərməyə məcbur edirik. Bunun nəticəsidir ki, artıq Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı Avropa İnsan Haqları Məhkəməsində kommunikasiya prosesi yekunlaşıb.

*"Bir növ, onları bu məsələyə diqqət göstərməyə məcbur edirik"*

Artıq yaxın həftələr ərzində məhz AİHM-in ilkin qərar açıqlayacağı gözlənir. Daha sonra bu qərarın həyata keçirilməsi, icra olunması Avropa Şurası Nazirlər Kabinetinin səlahiyyətindədir.

İnanmaq istəyirəm ki, beynəlxalq təşkilatlar öz qərarlarına, bəyanatlarına, beynəlxalq imiclərinə hörmət əlaməti olaraq bu qərarların icrasına nəzarət edəcəklər.

**Rəsmi İrəvana qarşı hər hansı beynəlxalq təzyiq, sanksiyalar tətbiq edəcəklər ki, nəhayət, girovlarımız azadlığa çıxsın. Ancaq ümumən götürəndə Avropa institutlarında hər zaman Azərbaycana və Dağlıq Qarabağ münaqişəsinin humanitar fəsadlarına qarşı ikili standartlar tətbiq olunur".**

***Vidadi ORDAHALLI***

**İyulun 12-də Daxili İşlər Nazirliyində 2019-cu ilin 6 ayında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

# Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin geniş kollegiya iclasını keçirdi

İclası giriş sözü ilə açan Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü ərəfəsində bir qrup əməkdaşın dövlət mükafatlarına layiq görülməsinin daxili işlər orqanlarına yüksək etimadın növbəti əyani ifadəsi olduğunu vurğulayıb.

Cari ilin birinci yarısında respublikada cinayətkarlıqla mübarizənin və ictimai təhlükəsizliyin təmin olunmasının vəziyyətindən danışan nazir bu sahədə əvvəlki dövrlərdə əldə olunmuş müsbət nəticələrin bir çox istiqamətlər üzrə inkişaf etdiyini, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunduğunu, kriminogen durumun nəzarətdə saxlandığını, daxili işlər orqanlarının qarşısında duran vəzifələrin bütövlükdə yerinə yetirildiyini bildirib.

Sonra geniş məruzə ilə çıxış edən nazir V.Eyvazov hesabat dövründə daxili işlər və prokurorluq orqanları üzrə 12411 cinayətin qeydə alındığını, bu cinayətlərin 88,5 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlərin təşkil etdiyini qeyd edib. Qəsdən adam öldürməyə cəhd cinayətlərinin 12,2 faiz, qəsdən sağlamlığa ağır zərər vurmaların 4,1 faiz, mülkiyyət əleyhinə olan cinayətlərin 8,1 faiz, xuliqanlıqların 25,1 faiz, ictimai yerlərdə baş vermiş cinayətlərin 35 faiz azaldığını, həmçinin cinayətlərin açılmasının yüksək olmaqla 83,1 faiz təşkil etdiyini, məhkəmədən, istintaqdan və təhqiqat orqanlarından yayınan 1852 təqsirləndirilən şəxsin tutulduğunu vurğulayıb. Bildirib ki, ötən ilin 6 ayı ilə müqayisədə cari ilin müvafiq dövründə ağır və xüsusilə ağır, şəxsiyyət əleyhinə olan, onlardan qəsdən adam öldürmələrin, adam öldürməyə cəhdlərin, dələduzluqların, soyğunçuluqların açılması xeyli yaxşılaşıb, keçmiş illərdən bağlı qalmış 163 cinayətin açılması təmin edilib.





Məruzəçi ötən 6 ayda mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 424 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 65 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən bütövlükdə 810 kiloqram narkotik vasitənin çıxarıldığını və 74 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini vurğulayıb.

Bununla yanaşı, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin cari ilin birinci yarısında da yerinə yetirildiyini nəzərə çatdıran nazir V.Eyvazov Nazirliyin rəhbərliyi tərəfindən 2749, o cümlədən respublikanın ayrı-ayrı şəhər və rayonlarında 680 vətəndaşın qəbulunun həyata keçirildiyini, vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əksəriyyətinin öz müsbət həllini tapdığını qeyd edib.

Məruzə ətrafında çıxış edən Naxçıvan MR-in Daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov, DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi, polis general-mayoru Elşən Kazımov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov və digərləri görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsanlar və onların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətinin bütövlükdə qənaətbəxş olduğunu, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlığı ilə fərqləndiklərini, eləcə də digər hüquq mühafizə orqanları ilə birlikdə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin uğurla davam etdirildiyini bildirib.

Prezident İlham Əliyevin daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyini qeyd edən Daxili işlər naziri ölkə başçısının ali etimadının şəxsi heyətin üzərinə böyük məsuliyyət qoyduğunu, bu etmadı doğrultmaq üçün ilk növbədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsini, hər bir struktur qurumda vətəndaş məmnunluğuna, insanlarla münasibətdə etik davranış qaydalarına ciddi əməl olunmasını, şəxsi heyətin peşəkarlığını artırmasını, yüksək mənəvi keyfiyyətlərə malik olmasını, bu istiqamətlərdə fəaliyyətin məqsədyönlü surətdə davam etdirilməsini tələb edib.

Ümumən, daxili işlər orqanlarının şəxsi heyətinin digər dövlət strukturları ilə sıx qarşılıqlı əlaqədə ölkədə həyata keçirilən asayişi mühafizə siyasətinin reallaşdırılmasına həmişə layiqli töhfələr verdiyini xatırladan Daxili işlər naziri Prezident İlham Əliyevi bütün şəxsi heyət adından əmin edib ki, bu iş gələcəkdə də böyük əzmlə davam etdiriləcək, aidiyyəti qanunvericilik aktlarından irəli gələn vəzifələr, qarşıya qoyulmuş bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetiriləcək. Əməkdaşlar və hərbi qulluqçular sabitliyin, əminamanlığın, dövlətin, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, 2019-cu ili də yüksək göstəricilərlə başa vuracaqlar.

Sonra Azərbaycan Polisinin 101 illik yubileyi münasibətilə təltif olunmuş bir qrup polis əməkdaşına dövlət mükafatlarının təqdim edilməsinə həsr olunmuş mərasim keçirilib.

# Azərbaycan-Fransa əlaqələri yaxşılaşan kimi bu ölkədəki muzdlu erməni nökərlərinin "buynuzu çıxır"...

**Fransa parlamentinin keçmiş üzvü, Fransa - "Artsax" dostluq qrupunun yaradıcısı Fransua Roşbulan qondarma qurumla bağlı ölkə məhkəmələrinin çıxardığı qərardan təəssüflənib. O bununla bağlı fikirlərini belə ifadə edib: "Fransanın inzibati məhkəmələri tərəfindən Fransa ilə "Artsax" arasında imzalanmış 5 dostluq xartiyasının ləğv edilməsi məqbul hal deyil. Bu mənim üçün qəbuledilməzdir".**



F.Roşbulan qeyd edib ki, guya qondarma qurum sakinləri təcrid olunmuş vəziyyətdə, blokadada yaşayırlar və qonşu Azərbaycan onları hər gün təhdid edir. Daha sonra o bunları deyib: "Bakı üçün göstərilən xartiyaların ləğv olunması o deməkdir ki, Fransa Azərbaycan tərəfinin səsləndirdiyi təhdidləri təşviq edir".

O, həmçinin, Fransa Xarici İşlər Nazirliyinin davranışından təəssüfləndiyini bildirib və qeyd edib ki, Fransanın Cənubi Qafqazda nüfuzu getdikcə zəifləyir.

## *Ramil Hüseynov: "Erməni lobbisi iki ölkə arasında münasibətləri, yaxınlaşmanı poza bilməyəcək"*

Göründüyü kimi, Fransa ilə Azərbaycanın münasibətləri yaxınlaşdıqca, erməni lobbisi də fəallaşmağa çalışır. Hər vəchlə iki ölkə arasında müşahidə olunan yaxınlaşmanı pozmağa çalışırlar. Mümkün olan qədər istəyirlər ki, buna zərər vursunlar. Bu baxımdan erməni lobbisinin fəallaşması fonunda göstərilən proses hara aparır?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bundan sonra bu kimi təxribatlara hər zaman hazır olmalıyıq:** "Baxın, Fransa inzibati məhkəmələrinin məlum qərarından sonra həmin bələdiyyə sədrləri ermənilərlə mənən həmrəy olduqlarını bəyan etdilər. Ondan sonra erməni təəssübünü çəkən digər şəxslər bənzər açıqlamalar verdilər və məhkəmələrin bununla bağlı verdiyi qərarı pislədilər. İndi F.Roşbulan düşüb ortalığa. Bütün bunlar nəyi göstərir? Bunlar onu göstərir ki, erməni lobbisi sakit dayanmaq niyyətində deyil. Onlar son aylar Fransa və Azərbaycan arasında bir sıra sahələrdə müşahidə olunan yaxınlaşmadan, iqtisadi və hərbi sahədə əməkdaşlığın genişlənməsindən bərk narahatdırlar. Bu səbəbdən bütün resurslarını işə salaraq bu yaxınlaşmanı pozmağa çalışırlar. Fransanın böyük dövlətçilik ənənələrinin olduğunu nəzərə alsaq, rəsmi Paris, hər halda, öz dövlət maraqlarından çıxış edəcək. Yəni ermənilərin xeyrinə Azərbaycana qarşı hər hansı geri addım atacağını gözləmirəm. Erməni lobbisi iki ölkə arasında münasibətləri, yaxınlaşmanı poza bilməyəcək. Ancaq buna baxmayaraq, biz arxayın olmamalıyıq. Hər an erməni lobbisinin təxribatlarına hazır olmalıyıq və müvafiq adekvat addımlar atılmalıdır. Bununla belə, Azərbaycan Fransada diaspor fəaliyyətini gücləndirməlidir. Nəzərə almaq lazımdır ki, Fransada çoxsaylı erməni yaşayır və çox güclü diasporları var. Bu səbəbdən son dərəcə ayıq olmaq və Fransadakı dairələrlə daim işləmək lazımdır".

*"Bu onu göstərir ki, erməni lobbisi sakit dayanmaq niyyətində deyil"*

***Vidadi ORDAHALLI***

# Avropa Şurası insan haqları komissarının Azərbaycandakı görüşlərinə fərqli baxışlar...

**Məlum olduğu kimi, Avropa Şurasının insan hüquqları üzrə komissarı xanım Dunya Miyatoviç Azərbaycana səfəri çərçivəsində fərqli spektrin təmsilçiləri ilə görüşüb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev ölkəmizdə səfərdə olan Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



## *Rəfail Becanov: "Azərbaycanın daxilində olan problemlərin həlli ilə bağlı üçüncü tərəfin iştirakı, onların məsələyə müdaxiləsini zəruri saymırıq"*

## *Rauf Zeyni: "Yaxşı olar ki, Miyatoviç insan haqları probleminə bir qədər qlobal aspektdən yanaşsın"*

Dövlət Komitəsinin sədri qonağa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyon 200 mindən çox soydaşımızın üzləşdiyi məhrumiyyətlər, məruz qaldıqları maddi və mənəvi itkilər, bu problemin həllinə beynəlxalq təşkilatların münasibəti, dövlətimizin öz imkanları daxilində gördüyü işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib. Qeyd olunub ki, təcavüzkar Ermənistan hələ də Azərbaycan ərazilərini işğal altında saxlamaqla bu ərazilərin əzəli sabibi olan yüz minlərlə insanın hüquqlarını pozmaqda davam edir. Eyni zamanda, bildirilib ki, Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə iş üzrə düşünülmüş və effektiv dövlət siyasəti həyata keçirilir. Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, maddi rifahının yüksəldilməsini sosial siyasətin prioritetlərindən biri kimi müəyyənləşdirib. Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərin problemlərinin həlli üçün məqsədyönlü iş aparır.

Xanım Dunya Miyatoviç görüşə və ətraflı məlumata görə təşəkkür edib, Dövlət Komitəsi ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini, budəfəki səfərində əsas məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində hərtərəfli yardım göstərmək, bu prosesə dəstək vermək olduğunu bildirib.

Bakının Yasamal rayonunda yerləşən Azərbaycan Texniki Universitetinin yataqxanası və Sabunçu rayonunda salınan "Şuşa şəhərciyi"ndə məcburi köçkünlərlə görüş keçirdiyini xatırladan Dunya Miyatoviç ölkəmizə yenə səfər edəcəyini söyləyib.

Azərbaycanda səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə baş prokuror Zakir Qaralov da görüşüb. Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, baş prokuror Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verdiyini xüsusi vurğulayaraq, müstəqillik əldə etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş məqsədyönlü işlər barədə ətraflı məlumat verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirildiyini bildirən baş prokuror, müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşdırılması, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər, eləcə də "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş işlər barədə qonaqları məlumatlandırıb.

Avropa Şurasının insan hüquqları üzrə komisarı Dunya Miyatoviç Azərbaycana səfəri çərçivəsində bir qrup hüquq müdafiəçisi, vəkil və vəkillikdən kənarlaşdırılan hüquqşünaslarla da görüşüb. Görüşdə ölkədə insan hüquqlarının durumu, vəkillik fəaliyyəti, media azadlığı məsələləri diqqət mərkəzində olub. Müzakirələr zamanı vəkillərin Vəkillər Kollegiyasından kənarlaşdırılması, bəzi vəkillərin bank hesablarının bağlanması, onlara tənbeh, töhmət verilməsi ətrafında müzakirə aparılıb. Müzakirələr zamanı D.Miyatoviç bu məsələləri hökumət qurumları qarşısında qaldıracağını vəd edib.

D.Miyatoviçin olkəmizə səfəri, keçirdiyi görüşlər və səsləndirdiyi fikirlər barədə ekspertlər nə düşünürlər?

Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-nin funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa strukturlarına bağlı olan qurumlarla qarşılıqlı səfərlərin təşkili, münasibətlərin intensiv xarakter almasını müsbət dəyərləndirirlər: "Bizim mövqeyimiz həm də bundan ibarətdir ki, Azərbaycanın daxilində olan problemlərin həlli ilə bağlı üçüncü tərəfin iştirakı, onların məsələyə müdaxiləsini zəruri saymırıq. Problemlərlə üzləşən təsisatlar hökumət qurumları ilə birbaşa təmaslara getsələr, məsələnin həlli daha operativ olar. Hesab edirəm ki, həm hökumət, həm də vətəndaş cəmiyyətinin özü bu məsələdə maraqlı olmalıdır. Çünki üçüncü tərəflərin iştirakı ilə bəzi məsələlər müzakirə ediləndə, həmin üçüncü tərəf öz maraqlarının da təmin olunmasına çalışır. Ümumilikdə götürdükdə Azərbaycanı Avropanın bir parçası kimi qəbul edirik. Bu da ölkəmizin Avropa strukturlarına inteqrasiya olunmasını zəruri edir. Qarşılıqlı səfərlər etimad mühitinin yaranmasına müsbət təsir edir. Sadəcə, daxili işlərimizə qarşmamaq şərti əsas götürülməlidir".

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, D.Miyatoviçin ölkəmizə səfəri və burdakı təmasları barədə məlumatlıdır: "Xanım Miyatoviç iyulun 8-dən Bakıda səfərdədir. Təmsil etdiyi qurumun mandatına uyğun olaraq müəyyən təmaslarda olub. Bir sıra siyasi və başqa məzmunlu görüşlər keçirib. Öz tarixi torpaqlarından didərgin düşən məcburi köçkünlərlə təmasda olub, onların problemləri, istəkləri ilə maraqlanıb.Həmin görüşlərdə qarşılıqlı fikir mübadiləsi aparılıb. Belə görüşlər bizim üçün yenilik deyil. Azərbaycan müstəqillik əldə edəndən sonra ATƏT, Avropa Şurası, BMT kimi qurumların nümayəndələri tez-tez bura səfərlər edib, səlahiyyətlərinə aid olan müxtəlif görüşlər keçiriblər. Amma təəssüflər olsun ki, bu görüşlərin real nəticəsi yoxdur. BMT-nin qətnamələri yerinə yetirilmir, Avropa Şurasının hadisələrə real təsir mexanizmi yoxdur. Ermənistana qarşı beynəlxalq hüquq normaları çərçivəsində sanksiyalar tətbiq edilmir. İşğalçı ordu Azərbaycandan çıxarılmır. Biz artıq 30 ildir həmin qurumlardan real addım, konkret nəticə gözləyirik. Düşünürəm ki, Miyatoviçin təmsil etdiyi qurum formalizmdən bir qədər uzaqlaşmalıdır. Mümkün qədər səylərini artırmalıdır ki, Azərbaycan torpaqları işğaldan azad edilsin. Miyatoviç hətta müxalif fikirli adamlarla da görüşüb. Vəziyyətlə bağlı aydın təsəvvür formalaşıb. Yaxşı olar ki, Miyatoviç insan haqları probleminə bir qədər qlobal aspektdən yanaşsın. Hansısa vəkilin kollegiyadan uzaqlaşmasına ən vacib insan haqları problemi kimi yanaşmasın. Bir milyondan artıq insanın pozulan hüquqlarının qorunması uğrunda fəaliyyətini göstərsin".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənipərəst konqresmen Şerman Azərbaycana qarşı aldığı muzdlu sifarişi "ləyaqətlə" icra etdi

## Azərbaycan Müdafiə Nazirliyi ABŞ konqresmeninə cavab verdi

**Məlum olduğu kimi, ABŞ Konqresi Nümayəndələr Palatası Xarici əlaqələr komitəsinin baş üzvü, ermənipərəst konqresmen Bred Şerman iyunun 25-də Azərbaycanın hücum imkanlarını gücləndirməsinə mane ola biləcək bir dəyişiklik təqdim edib.**



***Fikrət Sadıqov:** ”Çox güman ki, ABŞ Prezidenti bunu təsdiq etməyəcək”*

Təşəbbüs Bakının Xankəndidə yerləşən hava limanına uçacaq mülki aviasiya vasitələrinə daim təhlükə törətməsinin qarşını almağı hədəfləyir. Belə ki, dəyişiklik qəbul ediləcəyi halda, ABŞ-ın Azərbaycana Xankəndiyə qanunsuz uçan mülki təyyarələri vura biləcək silah satmasına qadağa qoyulacaq.

Təəssüflər olsun ki, Konqres dəyişikliyi qəbul edib. Belə ki, iyulun 12-də Nümayəndələr Palatasının müvafiq komitəsi toplanaraq sözügedən təklifi müzakirə edib. Məlumata görə, 2020-ci il üçün Milli Müdafiəni tənzimləyən qanuna bəhs edilən dəyişiklik təklif olunub. Həmin təklif erməni məsələləri üzrə konqresmen həmsədrlər Frank Pallone, Ceki Şpayer, Adam Şiff tərəfindən dəstəklənib. Bu minvalla, qanuna Xankəndidəki hava limanına mülki təyyarələrin enib-qalxmasına şərait yaradacaq dəyişiklik lehinə 234, əleyhinə 194 səs verilməklə qəbul edilib.

Ermənipərəst konresmen Bred Şerman dəstəyə görə həmkarlarına təşəkkür edib.

Onu da qeyd edək ki, bundan əvvəl ABŞ Konqresi Dağlıq Qarabağda atəşkəs rejiminin möhkəmləndirilməsi ilə bağlı təklif olunan düzəlişi də qəbul edib. İndi də bu qərar qəbul olundu. Heç şübhəsiz ki, ABŞ-ın bu addımı erməni həyasızlığını bir az da artıracaq. Bütün hallarda, Konqresin bu addımını ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov Konqresin bu addımına mənfi prizmadan yanaşdı.** Bununla belə, o, bir sıra məqamlara da aydınlıq gətirdi: "Bu o demək deyil ki, Konqresin bu qərarı dərhal qüvvəyə minəcək. Aşağı palatadan sonra bunu Senat təsdiq etməlidir. Ondan sonra ABŞ Prezidenti bunu təsdiq etməlidir. Yalnız ondan sonra bu qanun qüvvəyə minəcək. Ancaq ABŞ Prezidentinin bunu təsdiq edib-etməyəcəyi məlum deyil. Çox güman ki, ABŞ Prezidenti bunu təsdiq etməyəcək. Bu məsələnin bir tərəfi. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bütün

*”Bizim ərazimizdə istənilən təyyarə qanunsuz havaya qalxarsa, onu vurmağa tam ixtiyarımız var”*

dövlətlər, o cümlədən, ABŞ tərəfindən tanınır. Yəni bizim ərazimizdə istənilən təyyarə qanunsuz havaya qalxarsa, onu vurmağa tam ixtiyarımız var. Şermanın istəyi hər şey demək deyil. Bu bizim ərazimiz olduğuna görə nəyisə gözləməli deyilik. Başqa bir tərəfdən, bu o demək deyil ki, dərhal Xankəndiyə qanunsuz uçuşlar başlayacaq. Biz onu da başa düşməliyik ki, təkcə ermənilərlə yox, həm də məkrli anti-Azərbaycan qüvvələri ilə mübarizə aparırıq. Bu qüvvələr ikili yanaşmalarla bu vəziyyəti qiymətləndirirlər. Bu qüvvələr obyektivlikdən, beynəlxalq hüquq normalarından uzaqdırlar".

ABŞ Konqresinin Nümayəndələr Palatasının konqresmeni B.Şermanın Azərbaycana "Dağlıq Qarabağ hava məkanında mülki təyyarələri təhdid edə biləcək" ABŞ silahlarının satılmasına qadağa qoyulması məqsədilə qanunvericilik təşəbbüsü ilə çıxış etməsi məsələsinə Azərbaycan Müdafiə Nazirliyi tərəfindən də münasibət bildirilib. Nazirlikdən "Trend"ə verilən məlumata görə, bu cür təşəbbüslə çıxış, əslində, təəccüblü görünür: "Çünki ABŞ indiyədək ölkəmizə heç bir silah satmayıb. Bununla belə, Azərbaycan dünyanın qabaqcıl hərbi texnologiyalara malik ölkələrindən kifayət qədər silah və döyüş vasitələri alır.

Hərbi Hava Qüvvələrimizin silahlanmasına daxil edilən müxtəlif tipli hava hücumundan müdafiə vasitələri hava məkanımızı tam qorumağa və təhdid yaranarsa, dərhal cavab tədbirləri görməyə qadirdir.

Bundan əlavə, konqresmenə yəqin bəlli olmalıdır ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və münaqişə bölgəsi olduğundan, Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən mülki aviasiya vasitələrinin bu istiqamətdə uçuşlarına uzun müddətdir tam qadağa qoyulub".

***Vidadi ORDAHALLI***

# ABŞ Konqresinin Qarabağ probleminin həlli ilə əlaqədar qəbul etdiyi maraqlı qətnamə - danışıqlar prosesinə real təsir olacaqmı...

**Ermənistan KİV-inin verdiyi məlumata görə, ABŞ Konqresi Dağlıq Qarabağda atəşkəs rejimini möhkəmləndirməyə yönələn düzəlişi qəbul edib. Qeyd edilir ki, respublikaçı konqresmen Cudi Çunun təklif etdiyi düzəlişlər Dağlıq Qarabağda atəşkəs rejimi ilə bağlı bir sıra məqamları əks etdirir:**




## *Yeganə Hacıyeva: ”Mən ABŞ Konqresinin saytında bu adda sənədə rast gəlmədim”*

Təmas xəttindən snayperlərin, ağır texnikanın və yeni silahların geri çəkilməsi, ATƏT-in müşahidəçilərinin sayının artırılması, təmas xəttində atəşkəs rejiminin pozulmasının fiksasiya olunması.

Artıq ABŞ-dakı erməni diasporu düzəlişin qəbul olunmasına müsbət reaksiya verib. Konqresmen Cudi Çu ermənipərəst mövqeyi ilə tanınır. Qondarma "DQR"in "rəsmiləri" mediaya verdikləri açıqlamada bunu böyük uğur kimi xarakterizə edirlər. Əslində nə baş verir və bunun Qarabağla bağlı danışıqlara nə kimi təsiri ola bilər?

**Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu heç də ABŞ Konqresinin Azərbaycana qarşı xüsusi qətnamə qəbul etməsi kimi yozulmamalıdır:** "Mən ABŞ Konqresinin saytında bu adda sənədə rast gəlmədim. Dövlətlərin və xüsusilə də nizamlayıcı missiyası olan ölkələrin konfliktlərə yanaşması xüsusi olmalıdır. Burada söhbət sırf konfliktlə bağlı düzəlişlərdən getmir. Söhbət "Milli Müdafiə Aktı" adlı sənədə təklif olunan düzəlişlərdən gedir. Orada ümumi maraqların qorunması və sülhə dəstək bəndi var. Hər iki konqresmenin göstərdiyi bu yenilikləri onlar belə əsaslandırırlar ki, guya təkliflərin ABŞ-ın ümumi maraqlarına xeyri var. Aydındır ki, bu, erməni lobbi qruplarının xüsusi sifarişi əsasında baş tutur. Çünki təklifləri

*”Söhbət ”Milli Müdafiə Aktı” adlı sənədə təklif olunan düzəlişlərdən gedir”*

verən konqresmenlərin hər ikisi ermənipərəstliyi ilə seçilir. Təklif olunan düzəlişlər ABŞ qanunvericiliyində əksini tapa bilməz. Bu, hüquqi mübahisə mövzusudur. Çünki bunlar ABŞ-ın ümumi maraqları ilə uzlaşmır. Atəşkəs rejimi ilə bağlı müşahidələrin gücləndirilməsini uzun müddətdir ermənilər təklif edir. Azərbaycan tərəfinin bununla bağlı mövqeyi konkretdir. Biz deyirik ki, əvvəl işğalçı ordu əraziləri tərk etməlidir, sonra bu məsələ ətrafında müzakirələr aparıla bilər. Bu cür halları gündəmə gətirməklə ermənilər informasiya piarı aparırlar. Söhbət konkret qətnamənin və ya düzəlişin qəbulundan deyil, olunan təkliflərdən gedir. Bu məsələdə xüsusilə də media mənsubları həssas olmalıdırlar.

**Sadəcə, erməni lobbisi ABŞ-ın ümumi maraqlarına uyğun olan düzəlişlərə bəzi bəndləri soxuşdurub, onu öz qələbəsi kimi qəbul etdirmək istəyir. ABŞ Konqresinin Dağlıq Qarabağ münaqişəsinə təsir edə biləcək mexanizmi yoxdur. ABŞ-ın vasitəçi mövqeyi var ki, bu da deyilən məsələ ilə qətiyyən uzlaşmır. Hətta belə düzəliş qəbul edilsə belə, bunun danışıqlar prosesinə heç bir təsiri olmayacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Rusiyadan Qarabağın "açarını" alır

**Azərbaycan bu gün Rusiyanın himayəsi altında fəaliyyət göstərən Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) cərəyan edən prosesləri yaxından izləyir. Eyni zamanda o da məlumdur ki, Ermənistan istisna olmaqla, Azərbaycanın hər iki təşkilatda yer alan digər dövlətlərlə sıx münasibətləri mövcuddur.**

Bununla yanaşı o da faktdır ki, hər iki qurum Azərbaycan kimi böyük potensiala malik ölkəni öz sıralarında görməkdə xüsusilə maraqlı tərəf kimi çıxış edir. Məhz bu vəziyyət əvvəlki dövrlərlə müqayisədə indi Ermənistanda daha böyük narahatlıq predmetinə səbəb olmaqdadır.

Məsələ burasındadır ki, İrəvan və Moskva arasında münasibətlərin pisləşməsi fonunda Kreml son dövrlər Bakı ilə ən müxtəlif sahələr üzrə işbirliyini dərinləşdirir. Bu durumda İrəvanı qorxudan odur ki, Azərbaycanın bu təşkilatlarda ən azı müşahidəçi statusu alması Ermənistan üçün ciddi Qarabağ zərbəsi ilə müşayiət olunacaq. Çünki həm Rusiyada, həm də Ermənistanda yaxşı bilirlər ki, Azərbaycanın bu təşkilatlarla işbirliyinin əsas şərti Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. Düzdür, məsələnin iqtisadi tərəfləri də var. Məsələn, Avrasiya İqtisadi İttifaqına qoşulma iqtisadi üstünlüklər vəd edir. Çünki burada üzv ölkələr arasında gömrük rüsumlarının ləğvi, yaxud sadələşdirilməsi postsovet respublikalarının ixrac mallarını Rusiya kimi nəhəng bazara maneəsiz şəkildə çıxarmasına şərait yaradır. Belə olan halda, kənd təsərrüfatı məhsullarının ixracı üçün Rusiya bazarının əhəmiyyəti ölkəmiz üçün daha da artır.

Digər tərəfdən, Azərbaycanın Avrasiya İttifaqına üzvlüyü Dağlıq Qarabağ probleminin həllini labüdləşdirir. Məhz bu halda, ittifaqın prinsiplərinə uyğun olaraq, Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoyması zərurətə çevrilir. Əks hal isə ittifaqın yaradılmasının məntiqsizliyini ortaya çıxarır ki, buna da Rusiya çətin razı olar. Məhz bütün bunlar fonunda Azərbaycanın bu təşkilatlarda ilk mərhələdə müşahidəçi statusu alması belə Ermənistanda ciddi əndişə yaradır.

Baş verənlərlə bağlı "1in.am" portalı yazır ki, hazırda Azərbaycan bu təşkilatlarda üzv və ya müşahidəçi statusu almaq əvəzinə Rusiyadan Qarabağın "açarını" əldə etmək istəyir. O da bildirilir ki, Azərbaycan bu üzvülükdən sonra öz torpaqlarını daha rahat geri ala biləcək: "Azərbaycan Avrasiya İqtisadi İttifaqında üzvlük və ya müşahidəçi statusu almasını xarici siyasətdə ticarətin bir hissəsinə çevirmək istəyir. Azərbaycan təşkilatda üzv və ya müşahidəçi statusu almaq əvəzinə Rusiyadan Qarabağın "açarını" əldə etmək istəyir. Rusiya prezidenti Vladimir Putin dəfələrlə öz çıxışında MDB-yə üzv dövlətlərin rolunun əhəmiyyətini vurğulamaqla, ilk növbədə Tacikistan, Özbəkistan və Azərbaycanın roluna xüsusi önəm verib". Sonuncu dəfə bu məsələ ilə bağlı Putinin 2018-ci ilin yanvarında xüsusi bəyanatla çıxış etdiyini xatırladan erməni mediası onun bu günlərdə KTMT-də müşahidəçi statusu və təşkilatda təmsil olunan dövlətlərin səlahiyyətlərinin aydınlaşdırılması haqqında qanun layihələri paketini Dövlət Dumasının təsdiqinə təqdim etdiyini də xatırladır: "Bir sıra ekspertlərin fikrincə, bu qanun layihəsinin təqdim edilməsi yeni proseslərin başlanğıcına işarə edir. Əslində, qeyd edilən bu 3 ölkənin müşahidəçi statusu alması məsələsi öz həllini tapmaqdadır. Avrasiya İqtisadi İttifaqında müşhidəçi statusu alması prosesi məsələsində yalnız Azərbaycanın problemi yarana bilər. Ermənistan öz səs hüququndan Azərbaycanın müşahidəçi statusu alması əleyhinə istifadə edə bilər. Nəzərə almaq lazımdır ki, zərurət olduğu halda Ermənistan təşkilata milli təhlükəsizliyə dair məlumatlar təqdim edir. Bu halda Azərbaycan bu məlumatları, qismən də olsa, əldə etmə imkanına malik ola bilər. Bu baxımdan Ermənistan Azərbaycanın müşahidəçi statusu almasının əleyhinə səs verməlidir. Amma burada problem ortaya çıxır. Təşkilatın böyük oyunçusu Rusiya Federasiyasının maraqlarına qarşı çıxmağa Ermənistanın iradəsi çatacaqmı? Son illərdə Rusiya hakimiyyətini razı salmaq üçün Ermənistanın yeni hakimiyyətinin mümkün olan hər şeyi etdiyinin şahidi olmuşuq. Ancaq nəzərə almaq lazımdır ki, Suriyaya qoşun göndərilməsi də Ermənistanın maraqlarına zidd idi. Buna baxmayaraq, Ermənistan hakimiyyəti Rusiyanın rəğbətini qazanmaq üçün, hətta parlamentin müvafiq icazəsi və hər hansı beynəlxalq müqavilə olmadan belə Suriyaya qoşun göndərməyə qərar verib. Bu şəraitdə Rusiyanın istədiyi halda Ermənistan Azərbaycanın təşkilatda müşahidəçi statusu almasına heç bir maneə yarada bilməyəcək. Bunu Bakıda da yaxşı bilirlər".

Erməni şərhçi Tevos Arşakyan da qeyd edir ki, Moskvanın təzyiqlərlə öz istəklərini Ermənistana qəbul etdirməsi problem deyil və bu istəklərdən biri də Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılmasıdır. Eyni mövqeni rus ekspert Maksim Şevçenko da bölüşür. Onun sözlərinə görə, Rusiya Azərbaycan kimi bir müttəfiqi itirmək istəməz: "Təbii ki, Rusiya Azərbaycanı Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında görməkdən çox məmnun olardı. Bakı və Moskva bu məsələdə anlaşsa, İrəvan buna hansısa maneə yarada bilməz. Təşkilatlara üzv digər ölkələrin də Azərbaycanla münasibətləri kifayət qədər yüksək səviyyədədir. Ermənistan istisna olmaqla, qurum üzvləri Qarabağ münaqişəsinin həllini istəyir. Bunun üçün ilk növbədə ermənilər Qarabağın hüdudlarından kənarda işğal edilmiş rayonları azad etməlidir. Bu, hətta müzakirə edilməyən birinci məqamdır. Bu müddəa bir çox sammitlərdə, görüşlərdə, forumlarda təsdiq olunub. Rayonların azad edilməsi sülh nizamlanmasının başlanğıcı olacaq. Bu niyə baş vermir? Mənim üçün anlaşılan deyil. Bəli, Ermənistan hansısa zəmanətlər istəyir, öz qoşunlarını çıxardıqdan sonra Azərbaycan ordusunun hücum etməsindən qorxur. Lakin problemə kompleks yanaşmaq lazımdır. Rayonların azad edilməsi ilk addımdır. İkinci addım azərbaycanlı qaçqınların və onların ailələrinin bütün azad edilmiş rayonlara və Qarabağa qayıtmasıdır. Sonra isə Qarabağın statusu üzrə referendum keçirilməlidir.

Qarabağ niyə Cənubi Qafqazın İsveçrəsinə çevrilməsin? Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə arasında iqtisadi əlaqələr regionda vəziyyəti yaxşı mənada kökündən dəyişə bilər. Mən heç bir müharibə istəməzdim. Lakin ermənilər inad göstərsələr, Azərbaycanın digər seçimi qalmaya bilər. Halbuki, proses tamam fərqli də ola bilər. Azərbaycanın, Türkiyənin Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında yer alması böyük bir regionda əhəmiyyətli iqtisadi, siyasi dəyişikliklərə səbəb ola bilər. Bundan Ermənistan da yararlanmaq iqtidarındadır və bunu İrəvanda nə qədər tez dərk etsələr, o qədər yaxşı olar".

Hazırda proseslərin inkişaf axarı çox aydın göstərir ki, Azərbaycanla əməkdaşlığı dərinləşdirməkdə olan Rusiya həqiqətən də Azərbaycanı ilk olaraq Avrasiya İqtisadi İttifaqında görməkdə olduqca maraqlıdır. Bununla isə bir sıra səbəbləri var. Əvvəla, məlumdur ki, MDB ölkələrinin bir çoxunda iqtisadi böhran hökm sürür. Azərbaycan isə iqtisadiyyatının möhkəmliyi ilə digər ölkələrdən aşkar şəkildə fərqlənir. Azərbaycan istər azad ticarət zonası, istərsə də valyuta ehtiyatları olaraq digər MDB ölkələrindən xeyli qabaqdadır. Azərbaycanın sabit siyasi vəziyyəti də digər ölkələrə nümunə sayılır. Bunun üçün də belə bir ölkənin Avrasiya İqtisadi İttifaqına üzvlüyü qurumun güclənməsi deməkdir. Bu amillər Rusiya tərəfindən nəzərə alınır. Amma Kreml bilir ki, proseslərin istənilən şəkildə getməsi üçün Qarabağ münaqişəsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası əsas şərtdir. Rus ekspert İqor Korotçenko da qeyd edir ki, Qarabağ münaqişəsinin həllinə nail olmaqla Moskva Bakı ilə münasibətləri daha da dərinləşdirə bilər: "Münaqişənin həlli üçün ilk növbədə konflikti başa çatdırmaq, işğal edilmiş əraziləri Azərbaycana qaytarmaq, sonra isə Dağlıq Qarabağın status məsələsi ilə məşğul olmaq lazımdır. Ən azı, yeddi rayon qaytarılmalıdır. Və ya vəziyyəti dəyişmək üçün beş rayon qaytarılmalıdır. Moskva burada daha fəal rol oynamalıdır. Hələlik isə biz danışıqlar fonunda eskalasiya, İrəvandan hərbi bəyanatlar müşahidə edirik. Axı diplomatlar danışanda silahlar susmalıdır. Yaranmış durum, ən azı, İrəvanın ikili mövqeyindən xəbər verir. Bu isə yaxşı heç nə vəd etmir. Bu gün baş verənlər, Ermənistanın son hərəkətləri vəziyyəti yeni müharibəyə sürükləyir. Yeni müharibə isə aprel müharibəsindən daha genişmiqyaslı olacaq, yüzlərlə qurbana gətirib çıxaracaq. Əraziləri qaytarmaq lazımdır. Onları əbədi işğal etmək olmaz. Azərbaycan və Türkiyənin iqtisadi blokadasını aradan qaldırmaq üçün yeniliklər lazımdır. Ermənistan buna getməlidir və Moçkva da burada fəal siyasət yürütməlidir".

Avrasiya İqtisadi İttifaqı ilə yanaşı, Ermənistan perspektivdə Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında da müşahidəçi dövlət statusu ala biləcəyindən ciddi narahatlıq keçirir. Ermənistanda belə əndişə yaranıb ki, bu gedişlə Azərbaycanın KTMT-yə üzvlüyünə Rusiya lazımi şərait yaradaraq, İrəvanın bu təşkilatda sarsılmış mövqeyinə daha bir zərbə endirəcək. Bundan öncə də erməni mediası belə bir məlumat yaymışdı ki, Kreml Bakı və Ankaranı təşkilatda görməyi çox arzu edir. Qeyd olunurdu ki, məhz belə bir vaxtda Rusiya prezidenti Vladimir Putin KTMT-də müşahidəçi statusu və təşkilatda təmsil olunan ölkələrin səlahiyyətlərinin aydınlaşdırılması haqqında qanun layihələri paketini təsdiq üçün Dövlət Dumasına təqdim edib. Bu təsdiqdən sonra Bakı ilə Ankaranın təşkilata daha da yaxınlaşa biləcəyi qeyd edilir və bildirilirdi ki, yaranmış vəziyyətdə Qarabağ münaqişəsinin həlli Azərbaycanın lehinə sürətlənəcək. Proseslər də elə tədricən bu istiqamətdə cərəyan edir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistanda Rusiyaya bağlı şəxslərə qarşı baş nazir Nikol Paşinyanın hücumlarının davam etməsi, eyni zamanda İrəvanın Qərbmeylli siyasəti Kremldə daha böyük qıcıq yaratmaqdadır. Bu fonda Rusiyanın Ermənistana yönəlik təzyiq siyasətinin davam etməsi proqnozlaşdırılır. Erməni mediası yazır ki, bu ilin əvvəlində Kremlin Ermənistana etdiyi qaz sürprizi növbəti ildə yaşanacaq və bu hal İrəvan üçün daha ciddi zərbə olacaq.**

# Rusiyadan Ermənistana növbəti qaz zərbəsi - qiymət 200 dollara qaldırıla bilər...




Xatırladaq ki, ilin əvvəlində Rusiya Ermənistana satdığı qazın qiymətini 150 dollardan 165 dollara qaldırıb. Həmin vaxt Paşinyan iddia edirdi ki, Ermənistan istehlakçıları üçün rus qazının qiyməti "Qazprom" şirkətinin podratçısı olan "Qazprom Ermənistan" şirkətinin xərclərinin azalması səbəbindən qalxmayacaq. Amma hüquqi şəxslərə satılan qazın qiyməti, həmçinin maye qazın qiymətində 3 dəfə bahalaşma Paşinyanın yalan dediyini ortaya qoydu. Hazırda "Qazprom" Ermənistan istehlakçılarının yeganə qaz təchizatçısıdır. Düzdür, İrəvan, həmçinin İrandan qaz alır, ancaq o bundan yalnız elektrik enerjisi üçün istifadə edir. İndi İrəvan İrandan daha çox həcmdə qaz almağa can atır. Ermənistan baş naziri də bildirir ki, İrəvan İran qazının mümkün idxalı məsələsinin müzakirəsini davam etdirir: "İran qazının idxalı məsələsi hər zaman gündəmdədir. Biz bu danışıqları konkret və faydalı qərar əldə etməyənədək davam etdirəcəyik". Amma Ermənistanın qaz sisteminin idarəçiliyi Rusiyanın əlində olduğundan, Moskva İrəvanın niyyətinin reallaşmasına razılıq vermək niyyətində deyil. Üstəlik, Kreml Paşinyanı cəzalandırmaq üçün yenidən qazın qiymətini artırmağa hazırlaşır. "Jamanak" qəzeti yazır ki, yaranan gərginlik fonunda Ermənistan hakimiyyəti Rusiya ilə qaz qiymətləri mövzusunda apardığı danışıqların detallarını gizlədir: "Danışıqların detalları erməni tərəfi üçün elə də xoş deyil. Bizim məlumatımıza görə, Rusiya tərəfi 1 yanvar 2020-ci ildən etibarən qaz qiymətlərini 200 dollara qədər artırmaq niyyətindədir". Hesab edilir ki, qazın bu qiymətə qalxması Ermənistan üçün ağır sosial-iqtisadi zərbə olacaq.

Məsələ ilə bağlı "Azatutyun" radiosu bildirir ki, Ermənistan Rusiyadan qazı "Qazprom"un təklif etdiyi qiymətə almaq istəmir və onun filialı olan "Qazprom Ermənistan"ı cərimələrlə sıxır: "Ermənistan üçün qazın qiymətinin bundan sonra nə vaxtsa aşağı salınacağını gözləməyə dəyməz, çünki daha bunun yeri yoxdur". Yaranmış anlaşılmaz vəziyyətlə bağlı Rusiyada çıxan "Qazeta" nəşri "Qaz müharibəsi: Ermənistan "Qazprom"a hücum edib" başlıqlı məqalədə yazır: "Ermənistan hakimiyyəti Moskvanın təbii qazın qiymətini endirməsini istəyir. Danışıqlar çoxdan aparılır, bütün son tarixlər bitib. Ancaq hələ də razılaşma əldə olunmayıb. Qazın qiyməti indeksasiya olunmalıdır deyən rəsmi İrəvan yenidən bir problemi qaldırıb. Ermənistanla "Qazprom"arasında müqavilənin müddəti 2018-ci il dekabrın 31-də bitib. Bu gün "Qazprom"la "Qazprom Ermənistan" arasında imzalanmış əlavə müqavilə qüvvədədir. Müqavilədə Ermənistanın aldığı qazın min kubmetrinin qiyməti 150 dollardan 165 dollara qaldırılıb. Rusiya prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Sergey Prixodko hələ apreldə demişdi ki, iyulun 1-dən İrəvanla Moskva həm yeni qiyməti, həm də 2030-cu ilədək qaz təchizatının ümumi sxemini razılaşdırmalıdır. Amma iyulun az qala yarısı tamamlansa da, heç bir razılıq yoxdur. Bu durumda qazın qiymətinin erməni istehlakçıları üçün qalxması Paşiyan iqtidarına çox ciddi zərbə olardı. Buna yol verməmək üçün "Qazprom Ermənistan" İrəvanın ciddi təzyiqi altındadır. Lakin bu təzyiqlərin uzun müddət səmərə verməsi mümkünsüzdür. Hazırda ermənistanlı istehlakçılar üçün qiymətin qaldırılmaması onunla izah edilir ki, "Qazprom Ermənistan" öz xərclərini azaltmağa çalışır. Burada söhbət 500-dən 1000-dək əməkdaşın ixtisarından, investisiya proqramlarının kəsilməsindən gedir. Ancaq "Qazprom Ermənistan"ın xərcləri optimallaşdırmaqla əlavə vəsaiti əldə edə bilməyəcəyi, artıq bu ildən əhali üçün qazın tarifinin qaldırılmasıyla bağlı müraciət edəcəyi istisna olunmur.

Nikol Paşinyan belə vəziyyətdə artıq bir neçə dəfə bəyan edib ki, Avrasiya İqtisadi Birliyi üzvləri üçün qazın qiyməti çox fərqlənməməlidir. Di gəl, Moskva qazın qiymətini aşağı salmağa hazır olduğunu dilə gətirməyib".

Kremlə yaxın sayılan "Qazeta" yazır ki, tərəflər arasında razılaşma əldə olunmadığından, İrəvan əks-hücuma keçib, "Qazprom Ermənistan" ı sıxışdırmağa başlayıb. Elə ötən ay "Qazprom Ermənistan"ın 20 min dollar cərimələnməsi də bunun sübutudur: "İctimai xidmətlərin tənzimlənməsi komissiyası bu qərarını Rusiya şirkətinin yerli firmalar və yaşayış evlərini qaz şəbəkəsinə qoşma şərtlərini bir sıra hallarda pozması ilə əsaslandırıb. Cərimənin məbləği böyük olmasa da, bu, "Qazprom" və Kreml üçün siqnaldır, qəzet vurğulayır. "Qazprom Ermənistan"dan qəzetə bildiriblər ki, qazın qiyməti üzrə uzun müddətdir aparılan danışıqlar artıq yekun mərhələdədir. Ancaq danışıqların oktyabrda bitmək ehtimalı azdır. Rusiyalı ekspertlər isə Rusiyanın qiyməti salmağa hazır olmadığını vurğulayır. Milli energetika təhlükəsizliyi fondunun baş direktoru Konstantin Simonov hesab edir ki, Ermənistan qazı onsuz da rəqabətli qiymətə alır, ondan ucuz qaz ancaq Belarusa verilir, yəni qiyməti salmağın "yeri yoxdur". Simonov qeyd edib ki, ayrı-ayrı ölkələrə göndərilən Rusiya qazının qiymətinin formalaşmasına siyasi faktor da təsirini göstərir. Digər rusiyalı ekspert, Siyasi Texnologiyalar Mərkəzinin birinci vitse-prezidenti Aleksey Makarkinin fikrincə, Ermənistanın Rusiya qazı ilə bağlı növbəti imtiyaz əldə etmək şansı azdır". Əksinə, yuxarıda qeyd olunduğu kimi, gələn ildən Rusiya Ermənistana qazı daha baha qiymətə satmağa hazırlaşır.

***Tahir TAĞIYEV***

# Çindən gələn növbəti qatar dünyanın Azərbaycana marağını artırdı...

**Çindən yola düşən daha bir blok qatarının bu günlərdə Azərbaycana çatması fonunda ölkəmizin tranzit imkanlarına beynəlxalq marağın yüksəlməsi müşahidə olunur. Sian-Bakı blok qatarının paytaxtımıza çatmasından sonra belə fikirlər səslənir ki, ən böyük ixracatçı ölkə olan Çinin məhsullarının mühüm hissəsi Azərbaycan üzərindən daşınaraq dünya bazarlarına çıxacaq.**



Bu isə Azərbaycanın tranzit əhəmiyyətinin artması, onun yükdaşımalardan böyük həcmdə gəlir əldə etməsi deməkdir.

Xatırladaq ki, Sian-Bakı blok qatarı ilə bağlı layihə bu ilin aprelində Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Forumunda "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" MMC və Çinin "Xi'an Continental Bridge International Logistics Co. Ltd" şirkəti arasında Transxəzər beynəlxalq nəqliyyat marşrutu ilə hərəkət edən konteyner qatarlarının təşkili üzrə əməkdaşlıq çərçivəsində baş tutub. Hər iki şirkət cari ildə 30 konteyner qatarı buraxmağı planlaşdırır. Baş verənləri təhlil edən Rusiyanın "regnum.ru" portalı yazır ki, Azərbaycanın dünya miqyasında tranzit əhəmiyyəti sürətlə artır: "Elə bu günlərdə Çindən Azərbaycana daha bir qatar konteynerlərlə gəlib. Sian şəhərindən yola salınmış dəmiryol qatarı ümumi sayı 36 ədəd olan 45 və 40 futluq konteynerlər gətirib. Beləliklə, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi, yaxud Xəzər dənizi üzərindən Çindən Avropaya yük daşımaq üçün Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədən nəqliyyat-logistika şirkətlərinin təşəbbüsü olan, logistik infrastrukturuna 10 min kilometr dəmir yolu şəbəkəsi, 10 dəniz limanı, 70 ədəd səyyar qatar düşən, Azərbaycanın təşəbbüsü ilə salınmış Bakı-Tiflis-Qars dəmiryolunun tərkibinə daxil olduğu Transxəzər beynəlxalq nəqliyyat marşrutu Hindistandan Rusiyaya uzanan Şimal-Cənub layihəsi ilə yanaşı Azərbaycan üçün neft və qaza bağlı olmayan sektoru şaxələndirmək və inkişaf etdirməkdən ötrü iqtisadi strategiyanı gerçəkləşdirməkdə növbəti önəmli mərhələ olur.

Qeyd edək ki, bu gün Şərq-Qərb və Şimal-Cənub nəqliyyat layihələrinə qoşulan ölkələrin sayı 10-u keçir və görünür, bu say artacaq. Azərbaycan öz nadir coğrafi durumu səbəbindən hər iki layihəyə qatılan yeganə ölkədir. Bu, ölkə haqda beynəlxalq qovşaqlardan biri kimi danışmaq imkanı verir. Yada salaq ki, Bakı son illərdə dəmiryol sistemini modernləşdirmək və avtomobil yolları salmaq və yenidən qurmağa yüksək diqqət ayırmağa başlayıb, Xəzər sahilində yük göndərmə bacarığı, haradasa, 25 milyon ton təşkil edən ən böyük dəniz limanı tikilib, Azərbaycanı Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tiflis-Qars dəmiryolu salınıb. Bu yol başqa ölkələrə bu nəqliyyat kommunikasiyalarından istifadə imkanı açmaqla Avropa və Asiya arasında çatışmayan bənd də oldu.

Ekspertlərin fikrincə, bu gün kommunikasiya məsələləri, tranzitlərə nəzarət strateji məna qazanır, müxtəlif qütblər arasında amansız, hələlik gizli qarşıdurma gedir ki, transqitə tranzitləri boyunca daha inamlı şəkildə möhkəmlənmək mümkün olsun. Avropa Birliyi, "Bir qurşaq, bir yol"u yeridən Çin bununla məşğul olur, avropalı tərəfdaşları üzərindən hərəkət edən ABŞ-ın baxışları buna yönəlib, amerikalılar dünyanın bütün bölgələrində fiziki iştirakı mühüm sayırlar ki, nəfəsləri duyulsun. Transasiya, Avrasiya marşrutları ilə bağlı hər şey öz müttəfiqlərinin əhvalına, hətta onların opponentlərinə belə, ya da elə təsir edən ABŞ-ın birbaşa baxış sahəsindədir. Azərbaycan Prezidenti İlham Əliyev ötən il Bakıda Angela Merkellə, İtaliya prezidenti Serco Mattarella və AB təmsilçisi başqa siyasətçilərlə məsləhətləşmələr keçirərkən, Parisdə Emmanuel Makronla görüşərkən onlar, bir qayda olaraq, təkcə Cənubi Qafqazın lideri kimi deyil, həm də Avropa qitəsinin enerji təhlükəsizliyinin təminatında böyük şəkildə iştirak edən, habelə önəmli aktorlar üçün Şərqə qapı açan mühüm oyunçu kimi Azərbaycanda durumun necə olduğuna böyük diqqət ayırıblar, xüsusən də buradan belə yenə ABŞ-ın iştirakı ilə 5+1 formatı formalaşdırılan Mərkəzi Asiya olduğu üçün. Onlar bu səbəbdən Azərbaycanda, Azərbaycan ətrafında, Cənubi Qafqaz bölgəsinin hamısında sabitliyin saxlanmasının nə qədər mühüm olduğunu birbaşa deyirdilər ki, fəaliyyətdə olan tranzitlər və Avropanın əhatəli struktur layihələrinin yardımı ilə tez bir zamanda gerçəkləşdirilməsi ehtimal olunanlar narahatlığın, qarışıqlığın, mənfi təsirlərin bütün növlərindən etibarlı şəkildə qorunsun.

Azərbaycan Qərb yönündə artıq bir neçə uğurlu layihə həyata keçirib -bu, TANAP, TAP və Bakı-Tiflis-Qarsdır. Avropa praktikləri və praqmatikləri bilirlər ki, Bakı Şərq siyasətində açar rolunu oynayır və ümid edirlər ki, Azərbaycan Cənubi Qafqazın kommunikativ ad-sanını gücləndirmək üçün öz təşəbbüslərini bundan sonra da fəal yeridəcək. Bu, Qərb qütbü üçün bir nömrəli vəzifədir, çünki Avropa İran, Çin, Hindistanla münasibətləri inkişaf etdirməyə hədəflənib, Amerika isə bu proseslərə laqeyd qala bilməz, o, nəzarəti gücləndirməyə və bu layihələrdə fiziki iştiraka nail olmağa çalışır. Çin və Hindistan hər şeydən qabaq Qərb yönündə özlərinin çoxalan tədarükləri haqda düşünür. Pakistan və İranın iştirakı ilə Hind okeanı və Fars körfəzi üzərindən yeni marşrutlar Azərbaycanın maraqlarına birbaşa aiddir. Hindistandan Pakistan, İran, Azərbaycan, Gürcüstana uzanan Cənub-Şimal layihəsi də ticari-iqtisadi münasibətlərin inkişafı və mal tədarüklərini təmin etmək baxımından əsas layihələrdən biridir, Azərbaycanın əsas qovşaq məntəqəsi kimi rolu isə nəhəng mənaya malikdir.

Ekspertlər Hindistan və Çinin birbaşa marağı sayəsində İran, Azərbaycan və Gürcüstanın uzlaşdığı Cənub-Şimal marşrutunu gerçəkləşdirməyi yaxın gələcəyin məsələsi adlandırır. Cənub-Qərb nəqliyyat dəhlizi AB və Hindistan arasında yük daşımağa hesablanıb. Bu dəhliz yük daşımağa itirilən zamanı azaldır. Hesablamalara görə, yüklərin bu nəqliyyat dəhlizi ilə çatdırılması yeddi gün ərzində həyata keçirilir, halbuki, alternativ marşrutlara sərf edilən vaxt 35-37 gündən ibarətdir. Layihə hələlik konsepsiya kimi mövcud olsa da, hələ heç bir sənəd imzalanmayıb, İran ətrafında çox ciddi durum yaranıb, Bakı ekspertləri hesab edir ki, o, böyük perspektivlər səbəbindən ən yaxın gələcəkdə həll yolunu tapar.

Rusiya kimi böyük oyunçu da bölgədə sabitliyin saxlanmasında maraqlıdır və özünün "baş cığırı" yenə də Azərbaycandan keçəcək Şimal-Cənub nəqliyyat yolunu təklif edir. Bu zaman Mərkəzi Asiya bölgəsini də hərəkətə gətirmək imkanı var - Rusiyadan Qazaxıstan, Türkmənistan, Özbəkistan, oradan Hindistana və Uzaq Şərq bölgəsinə. Azərbaycanın dünyanın ən böyük nəqliyyat dəhlizlərinə qoşulmağa hazır olmağı layihə iştirakçılarında şübhə doğurmur. Axı Davos ümumdünya iqtisadi forumunun qiymətinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yeri tutur. Ölkə bunun sayəsində biznes mühitini də yaxşılaşdırmağa nail olub, çünki çağdaş nəqliyyat strukturunun varlığı həm daxili, həm də xarici yatırımlar üçün əlverişli şərtlər yaradır. Və budur, Azərbaycan Ümumdünya Bankının son "Doing Busines" hesabatında dünyada artıq 25-ci pillədədir, bu zaman ən islahatçı ölkə onluğuna daxil olaraq öz mövqeyini rekord göstəriciyə - 32-ci dərəcəyə qədər yaxşılaşdırıb. Azərbaycanda bir neçə növdə nəqliyyat magistralları - avtomobil nəqliyyatı, dəmiryolu, aeroport və dəniz liman xidmətləri kəsişir ki, bu da beynəlxalq logistikanın çağdaş tələblərini ödəyir və fövqəladə durumlar halında qarşılıqlı dəstək göstərməyə imkan verir. Azərbaycanın beynəlxalq nəqliyyat layihələrində qovşağa çevrilməsi ölkəyə təkcə birbaşa tranzitdən deyil, həm də servis xidmətinin inkişafından qazanc əldə etməyə imkan verəcək. Magistral xətlər boyunca ticarət mərkəzləri, yanacaqdoldurma stansiyaları, avtoservislər, motel və kafelər, turist mərkəzləri inkişaf edəcək".

***Nahid SALAYEV***

# Bakıda keçirilən İslam sivilizasiyası simpoziumu Azərbaycan multikulturalizmini tamamlayan hadisə kimi...

***Faiq Ələkbərli:*** *"Belə bir simpoziumun Bakıda keçirilməsi tamamilə əsaslıdır"*

**Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkan olan Azərbaycanda İslam mədəniyyəti uzun əsrlərdir təşəkkül tapıb. Vaxtaşırı olaraq ölkəmizdə İslam mədəniyyəti ilə bağlı tədbirlər, simpoziumlar, forumlar keçirilir. İyulun 10-da başa çatan UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla evsahibliyi edən Bakıda indi də "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun təşkili təqdirəlayiq haldır.**




*"İslam dini heç bir milli mədəniyyətə qarşı olmayıb, bu dini yalnız ərəb və sami mədəniyyəti kimi də təqdim etmək düzgün deyil"*

Məlum olduğu kimi, iyulun 11-də öz işinə başlayan "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium islamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqe ilə bağlıdır. Bu simpozium Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilir.

Qeyd edək ki, "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumu Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 9-11 dekabr 1998-ci il tarixdə Bakıda keçirilib. Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığı məlumdur.

Qafqazda İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yeri danılmazdır.

Bir sıra islamşünas alimlərin, təşkilat rəhbərlərinin qatıldığı simpoziumda əsas vurğulanan məsələlərdən biri ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olması ilə bağlı olub. İslam dininin sülh, barış, həmrəylik dini olması bu dinin özəl xüsusiyyətlərindən biri kimi diqqəti çəkir. Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində islam elementləri də qabarıq şəkildə əks olunub.

Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumun əhəmiyyətinin böyük olduğunu deyən ekspertlər bildirirlər ki, İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

Ekspertlər qeyd edirlər ki, İslam dini Azərbaycanda yayılmağa başlandığı dövrdən dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.

Azərbaycan ərazisində dini təsəvvür və əqidələr ən qədim zamanlardan mövcuddur. Qafqazda islamın yayılması və inkişaf etməsi bölgə xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir.

Simpoziumda "Azərbaycanda İslam mədəniyyətinin təkamül yönləri"; "Cənubi Qafqazda İslam mədəniyyətinin öyrənilməsində arxeoloji tədqiqatların rolu və əhəmiyyəti"; "Xilafət dövründə Azərbaycanda pul dövriyyəsi və sikkə zərbi"; "İslam dininin Azərbaycan şifahi xalq dastanlarının təşəkkülündə rolu"; "Qədim orucluq ayini və siriu-şira kultu"; "Azərbaycanda tolerantlıq, dini və etnik rəngarənglik keçmişdən bu günə (Şirvanşahlar dövlətinin nümunəsində)"; "Batum müslümanları (1918-1921)"; "Azərbaycanın XVIII əsrin sonları - XX əsrin əvvəllərinə aid maddi-mədəni irsində inanc sistemi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)"; "İslam numizmatikasının inciləri - Sacilər dövrünə aid Azərbaycan sikkələri"; "Cənubi Azərbaycanın Xalxal bölgəsinin sosial-mədəni inkişafında dini müəssisələrin-zaviyələrin rolu (XVIII əsrin əvvəlləri)"; "Müasir Azərbaycan ailə institutunun qorunmasında İslam dəyərlərinin rolu"; "Azərbaycanın Sumqayıt şəhərində müasir dini durum" mövzularında məruzələr də əhəmiyyətlidir.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, tarixçi-alim Faiq Ələkbərli bizimlə söhbətində bildirdi ki, Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunda bir alim kimi o da iştirak edir.** O bu simpoziumun əhəmiyyətinin böyük olduğunu deyərək qeyd etdi ki, belə bir tədbirin Azərbaycanda keçirilməsi üçün kifayət qədər tarixi əsaslar var. "Belə bir simpoziumun Bakıda keçirilməsi tamamilə əsaslıdır. Bu simpoziumda olduqca maraqlı məsələlər müzakirə edilir. İslam dininin Qafqaza gəlişi və bundan sonra gedən proseslər, tarixi-ideoloji, siyasi hadisələr gündəmə gətirilib. Bilirsiniz ki, bu tədbir ikinci dəfədir keçirilir. Belə simpoziumların Bakıda keçirilməsi, İslam dininin Qafqazda, o cümlədən də Azərbaycanda necə yayılması, necə inkişaf etməsi prosesinin özü diqqətçəkəndir. Ölkəmizdə İslam sivilizasiyasının inkişaf mərhələlərinin özü çox maraqlıdır. Bu gün dünyada islam dini ilə bağlı meydana çıxan bir sıra problemlər, Qərb dünyasında islamı başqa istiqamətlərə yönəltmək cəhdləri var. Qərb islam fundamentalizmi deyilən bir nəsnəni meydana atıb. Bu konfransın da əsas mahiyyəti odur ki, İslam dininin bəşəri, humanist, haqq-ədalət, sülh-barış dini olduğunu bir daha ortaya qoysun. Əsasən son əsrlərdə İslam dini ilə bağlı Qərb dünyasında yanlış təsəvvürlərin formalaşdırılması düzgün deyil. "İslam mədəniyyətində millilik və dünyəvilik" mövzusunda çıxış etdim. İslam dini heç bir milli mədəniyyətə qarşı olmayıb, bu dini yalnız ərəb və sami mədəniyyəti kimi də təqdim etmək düzgün deyil. İslam dinidə digər milli mədəniyyətlərlə uzlaşdırılması, sünni və şiə məzhəbləri ilə bağlı ortaya çıxan məsələlərdə ayırımçı deyil, başqa səbəblər tapmaq lazımdır.

Bütövlükdə, bu konfransda Türkiyə, Rusiya, Qazaxıstan və digər Orta Asiya respublikalarından, eləcə də ərəb ölkələrindən nümayəndələr iştirak edirlər. Onların da fikirlərindən aydın oldu ki, İslam dininin yeni formada, yeni istiqamətdə, ruhda təbliğ olunmasına ehtiyac var. Ümumiyyətlə, bu tədbirin məqsədi həm də son əsrlərdə İslam dininə yamaq edilən və onunla heç bir əlaqəsi olmayan bəzi nəsnələrin ortadan götürülməsinə, eyni zamanda da İslam dini ilə bağlı təhriflərin aradan qaldırılmasına yönəlib. Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumun Qafqazda İslam dininin yaranması, təbliğ edilməsi, islami dəyərlərin təhrifsiz şəkildə çatdırılmasında böyük əhəmiyyəti var. Azərbaycan bir islam ölkəsidir, lakin burada islam amili digər dinlərin, konfessiyaların təmsilçilərini sıxışdırmır. Əksinə, onlarla həmrəy şəkildə mövcuddur. Azərbaycan multikultural bir ölkədir və burada bütün dinlərin nümayəndələri sülh içində yaşayırlar. Əlbəttə, burada İslam dininin də başqa dinlərə münasibətdə tolerant bir din olduğu təsdiqlənir".

F.Ələkbərli qeyd etdi ki, bu gün İslam dini bütün yüksək göstəriciləri ilə Azərbaycan mədəniyyətində, mənəvi dünyasında özünə yer tutub. Onun bildirdiyinə görə, Qafqazda İslam mədəniyyətinin qorunması sahəsində Azərbaycan böyük inkişafa nail olub.

***İradə SARIYEVA***

**Azərbaycanda tarixi abidələrə ictimai münasibət elə də ürəkaçan deyil. Vaxtaşırı olaraq vətəndaşlar tərəfindən yeraltı və yerüstü arxeoloji abidələrin dağıdılmasının şahidi oluruq. Bu xüsusən də özünü daha çox yeni binalar, restoran və kafelər, otellər inşa edilərkən, su-kanalizasiya xətləri çəkilərkən daha çox büruzə verir.**

# Nazir Əbülfəs Qarayevin sahibkarlara bir çağırışının əsasları...

## Qafar Cəbiyev: *"Həqiqətən də bu sahədə çox ciddi problemlər var"*



*"Sahibkarlar, eləcə də digər vətəndaşlar iş görərkən tarixi abidələrlə qarşılaşırlarsa, onları dağıtmaqdansa, bu barədə aidiyyəti qurumlara məlumat versinlər"*

Tarixi abidələrə biganə münasibət Mədəniyyət Nazirliyini də hərəkətə keçməyə vadar edib. Belə ki, mədəniyyət naziri Əbülfəs Qarayev tarixi abidələrin qorunması ilə bağlı sahibkarlara və ictimaiyyət nümayəndələrinə müraciət edib.

Qeyd edək ki, indiyə qədər yerli sahibkarlar və iş adamları tərəfindən otellər, restoranlar və digər ictimai iaşə obyektləri inşa etdirilərkən ərazidə üzə çıxan arxeoloji abidələrin bir çoxu məhv edilib. Ekspertlərin bildirdiyinə görə, paytaxtda da belə hallar baş verib. Bəzi məşhur otellərin himi qazılarkən aşkarlanan maddi mədəniyyət qalıqları buldozerlə kürünüb. Bu günə kimi həm paytaxtda, həm də bölgələrdə analoji hallar baş verib.

Maddi irs üzrə ekspertlərdən birinin bildirdiyinə görə, Oğuz-Qəbələ-Bakı su kəməri çəkilərkən Ağsu ərazisində 25 küp qəbir dağıdılıb, bundan əlavə, Goranboy rayonunda qədim tarixə malik olan bir qədim kurqan tamamilə məhv edilib. Şamaxıda, Ağstafada, Bakıda belə halların baş verdiyini deyən ekspertin sözlərinə görə, yeraltı tarixi abidə yerləşən ərazilərdə iş görən şirkətlər qazıntı zamanı üzə çıxan arxeoloji abidələr haqqında aidiyyəti dövlət qurumlarına məlumat vermək əvəzinə, tamamilə sözügedən abidələri dağıdıb yox edirlər. Bir müddət əvvələ qədər İçərişəhərdə baş verən dağıntı işlərinin də sahibkarlar tərəfindən həyata keçirildiyini deyən ekspert bildirdi ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın məsələyə müdaxiləsindən sonra burada iş görən sahibkarlar əməllərini dayandırıblar. Şamaxıda isə sahibkar səhlənkarlığı üzündən qədim bir saray qalığının yox edildiyini deyən ekspert hesab edir ki, kimliyindən asılı olmayaraq, hər kəs maddi-tarixi dəyərlərimizə sahib çıxmalıdır. Bundan başqa, rayonlarda su-kanalizasiya xətlərinin çəkildiyi zaman yerli abidələrə ciddi zərər dəydiyini deyən ekspertin sözlərinə görə, bunun da baş verməsinə səbəb həmin abidələrin yerləşdiyi ərazilərin aidiyyəti qurumların nəzarətində olmamasıdır. Yerlərdəki qurumların həmin ərazidəki yeraltı və yerüstü abidələrin çoxundan xəbərsiz olması da analoji vəziyyətin baş verməsinə şərait yaradır. Azərbaycanda bir çox sahibkarın vətəndaşlıq hissinin zəif olduğunu deyən ekspertin qeyd etdiyinə görə, onlar ərazidə iş görərkən qarşılarına çıxan abidələrin mühafizəsinə deyil, dağıdılmasına can atırlar.

Ekspert qeyd etdi ki, başqa ölkələrin sahibkarları ilə müqayisədə bizim sahibkarlar tarixi-maddi dəyərlərə qarşı çox laqeyddirlər.

**Tarix elmləri doktoru, tanınmış arxeoloq-alim Qafar Cəbiyev "Bakı-Xəbər"ə bu kimi halların geniş yayıldığını təəssüflə bildirdi.** "Mədəniyyət nazirinin bu xatırlatması, xəbərdarlığı çox yerində edilən bir xəbərdarlıqdır. Həqiqətən də bu sahədə çox ciddi problemlər var. Təsərrüfat işləri görülərkən, tikinti işləri aparılarkən, yol çəkilərkən vaxtaşırı olaraq müxtəlif ərazilərdə tarixi dəyərlər üzə çıxır və təəssüflər olsun ki, bir çox hallarda bu barədə müvafiq qurumlara məlumat verilmir. Beləliklə də tarixi dəyərlər, tariximiz üçün son dərəcə əhəmiyyətli olan yadigarlar əldən-ələ düşür, sındırılır, dağıdılır. Biz isə bunları ürək ağrısı ilə qeyd etməyə borcluyuq. Bu cəhətdən də nazir Əbülfəs müəllimə bir arxeoloq kimi təşəkkür edirəm ki, bu məsələni diqqətdə saxlayır, geniş mənada ictimaiyyətin səylərini, diqqətini bu vacib faktora yönəldir".

Q.Cəbiyev vurğuladı ki, sahibkarlarda vətənpərvərlik hissləri olmalıdır. O, həmçinin, qeyd etdi ki, Azərbaycan sahibkarları ilə müqayisədə başqa ölkələrdə sahibkarlar belə məsələlərə çox həssaslıqla yanaşırlar. "Bakı-Tiflis-Ceyhan neft kəməri çəkilərkən bilirsiniz gürcülər nə oyunlar çıxardılar? Kəmərin keçdiyi müəyyən ərazilərlə bağlı deyirdilər ki, burada tarixi abidələr var və onları öyrənmək lazımdır. Yəni dünyanın hər yerində tarixi mədəni irsə, arxeoloji abidələrə son dərəcə həssas münasibət var. Bu, qanunla müəyyən edilmiş bir məsələdir. Vətəndaş mövqeyi başqa bir məsələdir, milli-mənəvi dəyərlərə hörmət fərqli bir işdir. Ancaq burada söhbət qanunlara hörmətdən gedir. Burada hər şey qanunla müəyyən edilib. O abidələri dağıtmaq olmaz. Sahibkarlar, eləcə də digər vətəndaşlar iş görərkən tarixi abidələrlə qarşılaşırlarsa, onları dağıtmaqdansa, bu barədə aidiyyəti qurumlara məlumat versinlər. Tarixi arxeoloji abidələrin bizə bəlli olduğundan yüz dəfələrlə çox hissəsi isə torpağın altındadır. Bu da heç kəsə məlum deyil. Bu abidələr əksər hallarda təsadüf nəticəsində ortaya çıxır. Onların üzə çıxmasına ya antropogen, ya da təbii təsirlər səbəb olur. Təbii təsir odur ki, yağış yağır, sel gəlir, zəlzələ olur və yarğanlar əmələ gəlir, burada da qədim tarixi yadigarlar üzə çıxır. Antropogen təsir isə insanın təbiətə müdaxiləsi nəticəsində baş verir və bu abidələr üzə çıxır. Üzə çıxan abidələr məhv edilməməli, onlar dərhal fiksasiya olunmalı və müvafiq yerlərə çatdırılmalıdır. Bunun kökündə nə durur? Bizdə artıq yeri bəlli olan, bu barədə elmi fikirlərin formalaşdığı abidələrimizdə də dağıntılara yol verilir. Ağstafadakı son hadisə də, Goranboy ərazisində dağıdılan qədim kurqan da dediyimizə sübutdur. Goranboyda nəhəng bir kurqan dağıdıldı. Bu bizim üçün çox ciddi bir itki idi. Yəni bunların kökündə duran əsas məsələlərdən biri odur ki, hətta yerli təşkilatlar belə öz ərazilərində olan abidələrin siyahısını, yerini, mühafizə zonasını dəqiq bilmirlər, onların tarixi barədə məlumatsızdırlar. Yəni bu istiqamətdə Akademiya da, Mədəniyyət Nazirliyi də, yerli qurumlar da əlaqəli şəkildə işləməlidirlər. Hər bir qurum öz üzərinə düşən işləri görməlidir. Bu bizim tariximizdir. İtirə-itirə hara gedirik?"

Q.Cəbiyev Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi zamanı abidələrin dağıdılması məsələsinə də münasibət bildirdi. "Dövlətin öz işi var, dövlət qanunları qəbul edir və o qanunlara əməl etmək vətəndaşların borcudur. Arxeoloji abidələrlə bağlı qanun qəbul edilib, müvafiq sənədlər var, əlaqədar qurumlar mövcuddur. Hər kəs gərək öz mövqeyində bu məsələlərə həssas yanaşsın. Mən deyə bilmərəm ki, Oğuz-Qəbələ-Bakı su kəməri çəkilərkən 25 küp qəbir dağıdılıb, bəlkə dağıdılan abidələrin sayı daha çox olub. Bunu heç kəs deyə bilməz. Əfsuslar olsun ki, tikinti, təsərrüfat işləri zamanı abidələr vaxtaşırı olaraq dağıntıya məruz qalır" - deyə Q.Cəbiyev vurğuladı.

***İradə SARIYEVA***



### Azərbaycana turist axını bu il də əhəmiyyətli dərəcədə artır, lakın Avropa turistləri hələ də azlıq təşkil edir...

**Çingiz İsmayılov:** *"Servis baxımından biz kifayət qədər irəliləyişə nail ola bilmişik, amma Avropa standartları səviyyəsinə hələ çatmamışıq"*

***"Turistlər görəndə ki, Gürcüstanda Azərbaycanla müqayisədə qiymətlər aşağıdır..."***

**Bu ilin birinci yarısında Azərbaycanı 6.5% çox xarici qonaq ziyarət edib. Dövlət Turizm Agentliyindən verilən məlumatda deyilir ki, 2019-cu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1.4 milyona çatıb ki, bu da ötən ilin eyni dövründə ölkəyə gəlmiş 1.3 milyon xarici ziyarətçi ilə müqayisədə 86 min və ya 6.5% çox qonaq deməkdir.**

Gələnlərin böyük hissəsini 29.4%-lə Rusiya (414 min), digər böyük hissəsini isə 24.3%-lə Gürcüstan (342 min) vətəndaşları təşkil edib. Gürcüstan üzrə artım 22.8% və ya 64 min nəfər olub. Qeyd etmək lazımdır ki, bu iki ölkədən gələn qonaqların sayı ümumi gələnlərin 50%-dən çox hissəsini təşkil edib.

Türkiyədən gəlmiş qonaqların sayı 3.7% artaraq toplam 148 minə çatıb. Cənubi və Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında yenə də sürətli artım müşahidə olunur - artım ilin ilk yarısı üçün uyğun olaraq 37.8% və 50.2% olub. Azərbaycan üçün Cənubi Asiyanın əsas turizm bazarları Hindistan (27 min, 80.2% artım) və Pakistan (19 min, 24.4% artım), Mərkəzi Asiyada isə Qazaxıstan (20 min, 15.1% artım) və Türkmənistandır (21 min, 85% artım).

Görünən odur ki, Avropadan Azərbaycana turist axını aşağıdır. Rəsmi statistikaya görə, 2018-ci ildə Azərbaycana gələn turistlərin 63%-i 3 ölkənin- Rusiya, Gürcüstan və Türkiyənin payına düşüb. Öz növbəsində, 20%-ə qədər turist İrandan və ərəb ölkələrindən gələnlərin payına düşür. Yəni, faktiki olaraq, Azərbaycana inkişaf etmiş, ödəmə qabiliyyətliliyi yüksək olan Avropa ölkələrindən gələn turistlərin sayı çox azdır. Məsələn, Almaniya, Niderland, Fransa və İtaliyadan Azərbaycana 2018-ci ildə gələn turistlərin sayı birlikdə 40 min nəfər ətrafında olub. Bəlli olur ki, bu ilin birinci yarısında da bu sahədə ciddi irəliləyiş yoxdur.

Maraqlıdır, Avropadan Azərbaycana turist niyə az gəlir?

Məsələyə münasibət bildirən turizm sahəsi üzrə ekspert Çingiz İsmayılovun sözlərinə görə, bunun bir sıra obyektiv və subyektiv səbəbləri var: "Səbəblərdən biri onunla bağlıdır ki, Avropaya əsasən Afrika və müsəlman miqrant axınları var. Bu səbəbdən Avropanın ictimai fikrində müsəlman dünyasına münasibət bir o qədər yaxşı deyil. Bir amil bununla bağlıdır. İkinci amil Qafqazda qonşuluğumuzda xristian ölkələri var. Təbii ki, xristian dəyərlərinə söykənən Avropa insanları məhz xristian ölkələrinə daha çox can atır, önəm verirlər. Üçüncü amil qiymətlər və servislə bağlıdır. Servis baxımından biz kifayət qədər irəliləyişə nail ola bilmişik, amma Avropa standartları səviyyəsinə hələ çatmamışıq. Qiymətlər də bu məsələdə mühüm rola malikdir. Avropadan gələndə coğrafi baxımdan əsasən Gürcüstana üstünlük verirlər. Turistlər görəndə ki, Gürcüstanda Azərbaycanla müqayisədə qiymətlər aşağıdır, ölkəmizə gəlmək istəmirlər. Bundan başqa, oradakı çimərliklər bizim çimərliklərlə müqayisədə nisbətən təmizdir. Bütün bu amillər üzündən Avropadan Azərbaycana az turist gəlir. Başqa bir tərəfdən, gərək bizim turist şirkətləri turist sərgilərində daha fəal iştirak etsinlər. Təəssüflər olsun ki, bizim turist şirkətləri bu işdə o qədər də fəal deyillər. Əsasən nazirlik səviyyəsində beynəlxalq şəbəkədə işlər görülür. "Avranyus" kanalında turizmlə bağlı əsasən Mədəniyyət Nazirliyi reklam çarxları verir. Hansısa turist şirkəti bununla bağlı reklam vermir. Ona görə də bizim turist şirkətləri gərək reklam işində fəal olsunlar. Təbliğat işi aparıb öz üstünlüklərini qabartmalıdırlar".

***Vidadi ORDAHALLI***

# Masallıdakı Vətən Müharibəsi abidəsinin işbazlara qurban getdiyi təsdiqlənir

**Masallı rayonunun Qızılavar kəndində, Masallı-Boradigah yolunun sol tərəfində Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə ucaldılan möhtəşəm abidənin dağıdılması ilə bağlı məlumat vermişdik. Həmin kəndin sakinləri yenidən redaksiyamızla əlaqə saxlayıblar. Onlar bildirirlər ki, prosesdə heç bir irəliləyiş yoxdur, rayon rəhbərliyi baş verən vandallıq hərəkətini ört-basdır etməklə məşğuldur.**



Xatırladaq ki, biz bu istiqamətdə apardığımız araşdırma nəticəsində bir çox qurumla əlaqə saxlayıb, həmin tarixi abidənin niyə sökülməsilə maraqlanmışıq. Ancaq təəssüflər olsun ki, əlaqə saxladığımız bütün qurumların rəsmiləri, əslində, bu ciddi hadisə ilə bağlı yaxalarını kənara çəkməyə çalışıblar. Kənd sakinlərinin sözlərinə görə, həmin abidənin sökülməsinə 71 saylı Masallı kənd seçki dairəsinin sədri İlkin Əzizovun rəhbərlik etdiyi deyilir. Mədəniyyət Nazirliyindən isə bizə deyiblər ki, bu işlərlə qurum yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti məşğul olur.

Qeyd edək ki, bizim ictimailəşdirdiyimiz bu mövzu cəmiyyətdə ciddi narazılıqla qarşılanıb. Sosial şəbəkələrdə geniş müzakirəyə səbəb olan bu hərəkətlə bağlı hətta bəzi sol təmayüllü siyasi partiyalar da etiraz bəyanatları veriblər. Bizimlə yenidən əlaqə saxlayan həmin kəndin bir neçə sakini bildirib ki, bu hadisə kənddə böyük narazılığa səbəb olub, ancaq problem həllini tapmayıb. Abidə uçurulan kəndin sakini Əsədov Ağaddin Cəmiyyət oğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onların şikayət etmədiyi instansiya qalmayıb: "Təkcə bizim kənddən Böyük Vətən Müharibəsində 106 nəfər həlak olub. Məhz onların xatirəsini əbədiləşdirmək üçün bu abidə qoyulmuşdu. Bu ilin aprel ayının 8-dən 9-na keçən gecə həmin abidə ekskavatorla sökülüb, yüklənib "KamAZ" markalı maşına. Sonra aparılıb kəndin başqa bir hissəsinə xəndəyə tökülüb, üstünü də torpaqlayıblar. Səhər biz kəndin mərkəzinə çıxanda gördük ki, abidə yoxdur. Bələdiyyə sədri və ərazi icra nümayəndəsindən öyrəndik ki, onların bu işdən xəbərləri yoxdur. Bunun oğurluq və ya xuliqanlıq niyyətilə edildiyini aydınlaşdırmaq üçün 102 xidmətinə zəng etdik.

Bir saat sonra kəndə polis tədqiqatçısı gəldi. Məni soruşdular. Çünki zəngi mən etmişdim. Tədqiqatçı mənə dedi ki, abidə Rayon İcra Hakimiyyəti başçısının qərarı ilə sökülüb və təmirə aparılıb. Bildirdim ki, təmirə aparılıbsa, onda torpağın altına niyə basdırılıb?"

Kənd sakininin sözlərinə görə, polis kənara çəkilib telefonla danışandan sonra ona deyib ki, narahat olmayın, abidənin yerində yenisi tikiləcək: "Kənd sakinlərindən abidənin kim tərəfindən söküldüyünü görən olub. Həmin yoldaşın özü də sizinlə danışacaq. Abidənin sökülməsinə bilavasitə rəhbərlik edən şəxs 71 saylı Masallı kənd seçki dairəsinin sədri Əzizov İlkin Ədalət oğludur. Onun marağı bundan ibarətdir ki, abidənin ətrafında, yolun kənarında 3-4 sot torpağı ələ keçirib, orada ya ticarət, ya da iaşə obyekti tikdirsin. Bizim Qarabağ müharibəsində həlak olan iki şəhid balamız da var. İndi aparıb söküləndə abidəni onlara qoyulan xatirə löhvəsi ilə eyniləşdiriblər. Axı bu iki hadisə arasında xeyli fərq var. Hər halda, müstəqillik şəhidlərimizlə Böyük Vətən Müharibəsində öldürülənlərin xatirəsini bir tikilidə əbədiləşdirmək düz deyil. Məqsəd abidənin olduğu yol kənarına yaxın olan ərazini zəbt etməkdir. Əgər bu həqiqətən xoş niyyətlə edilirdisə, niyə bunu gündüz yox, gecə saatlarında söküb, xəndəyə tökdükdən sonra üstünü torpaqla basdırıblar? Cavab bəllidir. Dəyərli 10 min manatlarla ölçülən torpaq sahəsini abidədən azad etmək lazım idi. Artıq abidənin yerinin koordinatları Əmlak Komitəsi tərəfindən qeydiyyata alınıb, onu satışa çıxardılar. Biz bununla bağlı hətta Rusiyanın ölkəmizdəki səfirinə müraciət etmişik. Onlardan aldığımız məktubdan bəlli oldu ki, səfirlik şikayətimizi Vətən Müharibəsi Veteranları Cəmiyyətinə yönəldib. Qələbənin 75 illiyi ərəfəsində onu simvolizə edən abidəyə bu cür münasibət sözün bitdiyi yer sayıla bilər.

Məhz bu hadisəyə görə kəndin icra nümayəndəsi biabırçı vəziyyətdə işdən çıxarıldı. İlkin Əzizov DSK-dan çıxarılıb İcra Hakimiyyətində aşağı işə keçirildi. Bununla bu işi ört-basdır etmək istəyirlər. İnsanları "qurban" verməklə diqqəti əsas məsələdən uzaqlaşdırırlar. Torpaq isə artıq hərraca çıxarılıb. Çox xahiş edirik, bizim səsimizi ölkə rəhbərliyinə çatdırın. Bizə kiminsə vəzifədən çıxarılması deyil, abidənin yerinə bərpa olunması lazımdır".

*Məhəmmədəli QƏRİBLİ*

# Şəhər avtobuslarının üstündəki "dezinfeksiya olunur" yazısına inanaqmı...

**Sərnişindaşıma ilə məşğul olan avtobusların içərisində gündəlik olaraq təmizliyin aparılması sərnişinlərin təhlükəsizliyi üçün çox vacib şərtlərdəndir. Amma çox təəssüf ki, bu gün paytaxtımızda sərnişindaşıma sahəsində fəaliyyət göstərən bir sıra avtobuslarda nəinki təmizlik işləri aparılmır, hətta bu avtobusların içərisində müxtəlif məişət tullantılarını, siqaret kötüklərini, oturacaqlarda isə illərdən bəri yığılan çirk və toz qalıqlarını aydın şəkildə görmək olur.**




Halbuki, avtobus şüşələrinin üzərində "hər səhər dezinfeksiya olunur" cümləsi yazılır. Ancaq avtobuslar nəinki hər səhər, heç həftədə, ayda bir dəfə də olsun təmizlənmir. Ancaq bu hal təkcə "Baku Bus" MMC-yə məxsus olan daşıyıcılarda müşahidə olunmur. Çünki "Baku Bus" avtobusları hər zaman təmiz və səliqəli olur. Natəmiz vəziyyət isə sərnişindaşıma ilə məşğul olan köhnə daşıyıcılarda müşahidə olunur.

## *Azər Allahverənov: "Sərnişindaşıma xidmətlərini həyata keçirən avtobusların əksəriyyətində təmizlik işləri aparılmır"*

**Məsələ ilə bağlı məlumat verən nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, sərnişindaşıma xidmətlərini həyata keçirən avtobuslarda təmizlik işləri aparılmır.** Xüsusilə də yay fəslində natəmizliyin geniş vüsət aldığı müşahidə olunur: "Bəllidir ki, avtobusda gün ərzində 100-lərlə sərnişin daşınır. Daşınan sərnişinlər arasında elələri ola bilər

## *"...lisenziyası əlindən alınsın"*

ki, o, avtobusun içərisini səliqəsiz hala salsın. Bu kimi hallar dəfələrlə yaşanır. Ancaq buna baxmayaraq, avtobuslar hər səhər sanitar-gigiyenik qaydalara uyğun təmizlənməlidir. Hər bir sərnişindaşıma xidmətini həyata keçirən şirkət rəhbəri avtobusların təmizliyinə cavabdehdir. Ancaq reallıqda isə avtobuslar dezinfeksiya olunmur. Mütləqdir ki, sərnişindaşıma xidmətini həyata keçirən şirkətin maddi-texniki bazası olsun. Avtobusların saxlanması üçün xüsusi qarajlar olmalıdır. Məlumat üçün bildirim ki, bu gün 40-dan çox daşıyıcı şirkət var. Ancaq o daşıyıcı şirkətlərdən yalnız onunun maddi-texniki bazası var.

Digərlərinin isə qarajı yoxdur. Məlumdur ki, qaraj və xüsusi prosedurları yerinə yetirə biləcək şəxs olmadığı halda, avtobus xəttə sanitar-gigiyenik tələblərə cavab verməyən durumda buraxılır. Bu səbəbdən də aidiyyəti qurumlar maddi-texniki bazaya malik olmayan daşıyıcı şirkətlərin avtobuslarına qarşı yanaşma tətbiq etməlidirlər. Məsələ qaldırılmalıdır ki, tələblərə cavab verməyənlərin lisenziyası əlindən alınsın".

*Günel CƏLİLOVA*

**Sahibkarların bir qismi vaxtı keçmiş məhsulu yenidən satışa çıxarır. Vaxtı keçmiş məhsulun üzərindəki tarixi dəyişib yenidən satışa buraxırlar. Malını israf edib ziyana düşmək istəməyən bəzi sahibkarlar bunun yolunu yazılan rəqəmləri silib yeni tarixlə əvəzləməkdə və ya ümumiyyətlə, son istifadə tarixini göstərməməkdə tapıb.**

# Marketlərdə yararlılıq tarixi dəyişdirilərək satışa mallar ötürülür iddiası...

*Eyyub Hüseynov: "...tarix elə bir yerdə vurulsun ki, məhsulun qapağı açılanda "plomb" kimi qırılıb düşsün"*



Belə bir məlumat yayılıb ki, bu hal daha çox bölgələrdə fəaliyyət göstərən marketlərdə müşahidə olunur. Sahibkar vaxtı ötmüş məhsulun son istifadə tarixini dəyişərək yenidən satışa çıxarır. Təbii ki, bu hal qida zəhərlənmələri və digər xəstəliklərin yaranmasına səbəb olur.

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, sanki marketlərdə olan qidaların bir qismi ölməzlik statusu alıb:** "Bu nüans isə səhhətimiz üçün çox böyük təhlükə doğurur. Vaxtı keçmiş qida məhsullarının son taleyi bizi çox narahat edir. Marketlər belə məhsulları bir küncə yığaraq sonradan distrübüter firmalara geri qaytarırlar. Təəssüflər olsun ki, biz yalnız bura qədər olan prosesi bilirik. Lakin bundan sonra həmin məhsulların taleyi necə olur, onu bilmirik".

Birlik sədri hesab edir ki, bu problem Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən nəzarətə götürülməlidir: "Həqiqətən də bu gün marketlərdə çox acınacaqlı hal yaranıb".

Ekspert onu da vurğuladı ki, malların buraxılma tarixi, saxlanma müddəti və saxlanma şəraiti ilə bağlı ölkədə çox ciddi problemlər var: "Əsasən süd-qatıq məhsulları istehsal edən sahibkarlar bəzi fırıldaqlara əl atırlar. Ağartı məhsullarının istehsal, yararlılıq və son istifadə müddətləri qapaqların üzərində yazılır ki, bunu da dəyişib yeniləmək çox asandır. Lazım olanda həmin yapışqan kağız yenilənib yenidən marketlərə qaytarılır.

*"Malların buraxılma tarixi, saxlanma müddəti və saxlanma şəraiti ilə bağlı ölkədə çox ciddi problemlər var"*

Bəzən də elə həmin kağızı qopardıqda altında köhnə tarixin saxlandığı hallarla da rastlaşmaq mümkündür. Bizim tələbimiz budur: tarix elə bir yerdə vurulsun ki, məhsulun qapağı açılanda "plomb" kimi qırılıb düşsün. Ölkədə elə sosiska istehsalçıları var ki, hər 10 sosiskadan bir istehsal və saxlanma tarixi qeyd olunur. Lakin bunu etməyən sahibkarlar da var. Bu baxımdan, alıcılar özləri belə məhsullara diqqət yetirməlidirlər".

E.Hüseynov onu da vurğuladı ki, vətəndaşlar aldanmamaq üçün istehsal tarixi vurulan hissənin sonradan yapışdırılan kağız olub-olmadığına baxsınlar. İstehlakçının hüququ var ki, satış şəbəkəsindən malın qaimə sənədini tələb etsin və malın dükana nə vaxt gəldiyini, istehsal və saxlanma tarixini öyrənsin: "Lakin Azərbaycanda satılan malların 80 faizinin heç bir sənədi yoxdur. Nazirlər Kabinetinin qərarı var ki, hər bir ədədinin üzərində tarix olmayan məhsulların açıq satışı qadağandır. Lakin bu gün bütün marketlərdə konfetlər açıq satılır. Bu sahədə də kütləvi surətdə aldatma var. Həmin qərarda göstərilir ki, ət məhsulları paket formasında satılmalıdır və hər paketin üzərində istehsal tarixi vurulmalıdır. Amma supermarketlərdə ət açıq formada satılır. Yalnız paketlənmiş və buraxılma tarixi olan ət almaq lazımdır. Bu tarixlərin yazılmasında da ən əsas diqqət yetirilməli bir məqam var ki, istehlakçılar yazının şriftinə fikir verməlidirlər. Orijinal tarixlər avtomatik formada nazik tuşla yazılır. Qalın şriftlə yazılanlar isə sonradan əlavə edilənlərdir".

*Günel CƏLİLOVA*

**Məlumdur ki, gələn ildən ölkəmizdə icbari tibbi sığorta tətbiq olunacaq. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı xəstəxanalarda informasiya texnologiyaları infrastrukturunun qurulması, sığortalılar xəstəxanaya gəldiyi halda onların qeydiyyatının elektron şəkildə aparılması və göstərilən xidmətlər barədə məlumatların elektron şəkildə agentliyə göndərilməsi işi yekunlaşmaq üzrədir.**

# Süni mayalanma və orqan köçürmələri də icbari tibbi sığorta paketinə salına bilər...

*Adil Qeybulla: "Orqan transplantasiyası və süni mayalanma bahalı əməliyyat olduğu üçün, onların icbari tibbi sığorta paketinə salınması müsbət olar"*



2020-ci il yanvarın 1-dən ölkədə tətbiq olunacaq icbari tibbi sığortanın problemsiz həyata keçirilməsi üçün ciddi və sistemli tədbirlər görülməkdədir.

Qeyd edək ki, icbari tibbi sığorta ilə bağlı həyata keçirilən pilot layihədə müraciətlərin sayından asılı olaraq, xidmətlər zərfinə bir sıra xəstəliklər daxildir. Xidmət zərfinə dəyişikliklərin edilməsi gözlənir. Dəyişikliklər arasında süni mayalanma və orqan köçürmələri də var. Məlumdur ki, süni mayalanma və orqan transplantasiyası böyük vəsait tələb edən sahələrdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələrinə açıqlamasında bildirib ki, 2020-ci ildən tətbiq olunacaq icbari tibbi sığorta paketinə süni mayalanma və orqan transplantasiyasının da əlavə olunması gözlənir. Z.Əliyev qeyd edib ki, gələn ildən limitli şəkildə qeyd olunan problemlərin icbari tibbi sığortanın xidmətlər zərfinə daxil edilməsi mümkündür: "Hazırda onların xidmətlər zərfinə daxil edilməsi təklif olunub. Təkliflər öz təsdiqini tapdıqdan sonra əminliklə deyə biləcəyik ki, həmin istiqamətlər üzrə nə qədər və hansı növbə ilə xidmət etməyi gözləyirik. Çünki burada növbəlilik düzgün, ədalətli şəkildə tənzimlənməlidir ki, ən

*"Bu gün ölkədə orqan transplantasiyasını həyata keçirmək istəyən xəstələrin sayı yetərincədir"*

çox ehtiyacı olan vətəndaşlar həmin xidmətlərdən yararlana bilsinlər".

**İcbari tibbi sığorta paketinə süni mayalanma və orqan transplantasiyanın daxil olunmasının əhəmiyyəti barəsində danışan professor, həkim-ekspert Adil Qeybulla bunları dedi:** "Məlumdur ki, orqan transplantasiyası və süni mayalanma bahalı əməliyyatlardır. Bu gün ölkədə orqan transplantasiyasını həyata keçirmək istəyən xəstələrin sayı yetərincədir. O xəstələrin bir qismi ya maddi çətinlik, ya da orqan çatışmazlığından müalicə oluna bilmir. Bu tip xəstələrin şəfa tapması üçün sığorta paketinə orqan transplantasiyasının salınması zəruridir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, oynaq köçürülməsi prosesi dövlət xəstəxanalarında həyata keçirilir. Ancaq oynağın hansı firma tərəfindən alınıb xəstəyə taxıldığı sualdır. Çünki elə süni oynaqlar var ki, xəstəyə taxılan zaman gözlənilən effekti vermir.

A.Qeybullanın sözlərinə görə, bu gün ölkədə süni mayalanmaya böyük tələbat var. Övlad sahibi ola bilməyənlər çarəni süni mayalanmada görürlər. Lakin qeyd olunan əməliyyatın həyata keçirilməsi üçün tələb olunan vəsait baha olduğu üçün, hər kəs bu prosesi həyata keçirə bilmir. Nəticədə isə ailələr dağılır: "Bu səbəbdən də süni mayalanmanın icbari tibbi sığorta paketinə daxil olması müsbət qərar olar."

*Günel CƏLİLOVA*

№ 123 (4021) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

13-15 İYUL 2019-cu il

www.baki-xeber.com

## "CavanNar" tarifinə qoşul, 10 GB internet əldə et!

**Azərbaycan mobil rabitə bazarında internet istifadəçiləri üçün sərfəli tarif sayılan "CavanNar"a qoşulan abunəçilərin sayı sürətlə artmaqdadır. Belə ki, ikiqat internetdən yararlanmaq imkanı verən "CavanNar" istifadəçilərinin sayı son 1 ayda 18% artıb. Bununla da martın ortasından abunəçilərin ixtiyarına verilən "CavanNar" paketlərindən istifadə edənlərin sayı 50 minə yaxındır.**




Qeyd edək ki, "CavanNar"a qoşulmaqla "İnstagram", "Facebook", "Twitter" və "VKontakte" kimi sosial şəbəkə istifadəçiləri daha çox həm internetdən istifadə edə, həm də ünsiyyət qura bilirlər. "CavanNar" tarifi 2 müxtəlif paketdə təqdim olunur. "CavanNar 9"a qoşulmaq istəyənlər aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə əldə edə bilir. "CavanNar 6" isə istifadəçilərə aylıq 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. "CavanNar" tarifinə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər.

"CavanNar 9"a qoşulmaq üçün "C9" yazıb 777-yə göndərmək və ya *777#9#YES yığmaq lazımdır. "CavanNar 6"ya qoşulmaq üçün isə "C6" yazıb 777-yə göndərmək və ya *777#6#YES yığmaq kifayətdir.

Qeyd edək ki, "CavanNar" tarifinə qoşulan abunəçilər hazırda ölkədə ən geniş şəbəkələrdən birinə malik olan "Nar"ın 4G şəbəkəsindən istifadə etməklə tam keyfiyyətdə yararlana bilərlər. "CavanNar" tarifi haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Elan

Bakı şəhər sakini İbadov İbad Əlövsət oğluna məxsus PİKAP markalı 99 LH926 seriya nömrə nişanı itdiyindən etibarsız sayılır

Əliyev Həsənağa Yarı oğluna məxsus, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Yesenin küçəsi 102 ünvanında yerləşən 85 saylı mağazaya aid sənədlər itdiyi üçün etibarsız sayılır.

Osmanov Barat Ocaqqulu oğluna məxsus, Ağsu rayonu, Kalva kəndində yerləşən torpağın RX № 1251616 çıxarışı, bağ evinin layihəsi və rəyi itdiyi üçün etibarsız sayılır.

Mahmudov İlham Ağa oğlunun adına, Abşeron rayonu, Buzovna tərəvəzçilik-südçülük sovxozu ərazisində fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsinin sənədləri itdiyi üçün etibarsız sayılır.

## Çin 2020-ci ildə Marsa ilk tədqiqat missiyası göndərməyi planlaşdırır

**Çin 2020-ci ildə Marsa ilk tədqiqat missiyasını göndərməyi planlaşdırır.**



Artıq alimlər kosmik aparat üzərində bütün işləri bitiriblər. Bu haqda Çinin "Global Times" nəşri yazıb. "ICTnews" bildirir ki, 5-7 iyul tarixlərində Jiçjao (Şandun əyaləti) şəhərində keçirilmiş peyk və kosmos üzrə konfransda hazırlanmış kosmik aparat haqda məlumat verilib. Sözügedən aparatın əsas vəzifəsi planetdə həyat əlamətləri axtarmaqdan ibarətdir. Həmin aparat Marsda atmosferi, landşaft, geoloji və maqnit xüsusiyyətlərini araşdıracaq. Bundan başqa missiya zamanı, həmçinin insanın Mars planetinə uyğunlaşıb yaşaya bilməsi potensialı qiymətləndiriləcək.

## Dörd asteroid planetimizlə toqquşa bilər

**Avropa Kosmik Agentliyi planetimizlə toqquşa biləcək dörd asteroidin adını çəkib.**

"Ölkə.az" bildirir ki, söhbət diametri 900 metr olan "1979 XB" asteroidindən gedir. Hazırda asteroid Günəş sistemindən saniyədə 70 min km sürətlə keçir və hər saniyə Yerə 30 km yaxınlaşır. Bundan başqa, 4 futbol sahəsi boyda olan Apofis asteroidi də 200 milyon km məsafədədir. Amma 2029-cu ildə Yerə 30 min km məsafədə olacaq. Alimlərin proqnozlarına əsasən, "2010 RF12" asteroidi planetimizlə toqquşsa, Çelyabinsk (2013-cü ilin fevralı) meteoritindən daha az ziyana səbəb olacaq. Sonuncu təhlükəli asteroid isə "2000 SG344" adlanır və hazırda planetimizdən uzaqdadır. Amma hər saniyə Yerə 1.3 km yaxınlaşır.

## Malaxit daşının müalicəvi xüsusiyyətləri...

**Müxtəlif daş-qaşların fiziki təsir vasitələri var. Bəzi inanclara görə, üzərində daşıdığın daş enerjini uda və ya əksinə çevirə bilər.**

Qədim zamanlarda malaxit çox nadir tapıldığına görə qiymətli daş hesab edilirdi. Unikal formasına görə, malaxitə ala-bəzək daş adı verilib. Ondan müxtəlif həmayillər, bəzək əşyaları, boyunbağılar və sancaqlar hazırlanır. Qədim Çində malaxitdən əsasən dekorativ əşyaların hazırlanmasında xammal kimi istifadə olunurdu. Əfsanəyə görə, malaxit insanı görünməz edir, bədnəzərdən qoruyur. Misirlilər onun sehrli olduğuna inanırdılar. Yunanlar da malaxitin qoruyucu xassəyə malik olduğuna inanırdılar. Malaxitin müalicəvi xüsusiyyətləri də çox maraqlıdır. İnanclara əsasən malaxit yaranın sağalmasını sürətləndirir, mənfi enerjini udur. "Milli.Az" bildirir ki, Azərbaycan Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərova AZƏRTAC-a deyib: "Malaxit orqanizmdə serotonin hormonunun miqdarını artırır, xoşbəxtlik hissi yaradır. Onu üzərində gəzdirənlər nə vaxtsa baş vermiş hadisəni özlərinə deyil, başqa bir obyektə yükləmək istəyirlər. Beləliklə, həmin hadisənin ağırlıq və məsuliyyətini öz üzərindən atmış olurlar". Həmin daşların rəngi nə qədər açıq çalarlı olarsa, onun müalicəvi xüsusiyyəti də o qədər güclü olur. Zümrüd yaşılımtıl daşlar ürək və qan damarları üçün faydalıdır. Daha tünd daşlar isə birbaşa ürək əzələlərinə təsir edir. Gümüşü çərçivə isə bu daşın müalicəvi xüsusiyyətlərini gücləndirir. Malaxitin adı yunan dilindən götürülüb və tərcüməsi "yumşaq" mənası verir. Malaxit firuzəyi rəngdən qara yaşıl rəngə qədər digər daşlardan nəzərəçarpacaq dərəcədə seçilir. Psixoloq onun haqqında danışarkən qeyd edib ki, daşı aksessuar kimi üzərində gəzdirənlər də, evdən asanlar da var. Əslində isə enerji əşyada deyil, ona yanaşma tərzindədir.





**Qoç** - Sizi maraqlandıran sahədə irəliləyişə nail olmaq üçün ciddi səy göstərməyiniz gərəkdir. Strateq olun, məntiqli taktika qurun. Ani hisslərin əsiri olmayın, eyni zamanda, "qlobal hədəf"lərə də aludə olmayın.



**Buğa** - Fəaliyyət sahənizdə təkmilləşmək və irəliləmək üçün potensial var. Gündəlik qayğıların çözülməsinə yaradıcı yanaşsanız, yaxşı nəticələr əldə edəcəksiniz. Kreativlik və müstəqil təfəkkürlə bahəm, intizama meylli olun.



**Əkizlər** - Mənasız illüziyalar və səbəbsiz nikbinlikdən uzaq olun. Situasiyanı olduğu kimi qəbul etsəniz, seçim asanlaşacaq. Məqsədə çatmaq üçün inadla çalışın. Əhvalınızın dəyişməsi istisna deyil.



**Xərçəng** - Çoxdan bəri məşğul olduğunuz işin bəhrəsini görəcəksiniz. Əhvalınız pis olmayacaq. Dayanıqlı hisslərə can atırsınızsa, emosional olmayın. Hisslərinizə nəzarət edin.



**Şir** - Mövcud durumdakı prioritetləri dürüst müəyyənləşdirin. Tələbat və zərurət iyerarxiyasını normal bəlirləsəniz, seçdiyiniz istiqamətdəki addımlarınız uğurlu olacaq. Yanlış yönlərə sapmayın.



**Qız** - İstirahət və əyləncə planlarını təxirə salın. Qarşıda həllini gözləyən problemlər var. Mühüm sənədləri qaydaya salın. Zəruri danışıqları ertələməyin. Biznes tərəfdaşları ilə ünsiyyətlər pis alınmayacaq.



**Tərəzi** - Yaradıcılıq, innovasiyalar üçün faydalı zamandır. Maraqlarınızı təmin edəcək işlərlə məşğul olun. Problemlərin həllində yeni variantlardan istifadə edin. Kreativ olun, sınanmış metodları bütün dərdlərə çarə saymayın.



**Əqrəb** - İşgüzar tərəfdaşlığın effektiv olması üçün əlinizdən gələni edin. Tərəfdaşlarınızla münasibətlərinizdə həll olunmamış məsələlər varsa, diqqətli və sayıq olun. Şəriklərlə tərəfdaşlar ciddi ziyan çəkməmiş situasiyanı aydınlaşdırmağa çalışın.



**Oxatan** - İşgüzar təmaslara və danışıqlara xüsusi fikir verin. Emosiyalara uymayın. Diqqətli olun, qarışıq situasiyalarla sayıq davranın. Qarşı tərəfin nə istədiyini müəyyənləşdirməmiş aktiv addımlar atmayın.



**Oğlaq** - Bilik və bacarıqlarınızı nümayiş etdirməkdən çəkinməyin. Məqsədə doğru qətiyyətlə irəliləyin. Aktiv olun, süstlüyə qapılmayın. Ətalət inkişafın düşmənidir. İntellektual və fiziki işi növbələşdirin.



**Dolça** - Günün ilk yarısından etibarən faydalı məlumatlar, fəaliyyət prosesində gərəkli informasiyalar əldə etməyə çalışın. Mürəkkəb problemin çox sadə və asan həlli var. Ciddi əməliyyata başlamazdan əvvəl bütün şərtlərlə tanış olun.



**Balıqlar** - Günün ilk yarısında işgüzar görüşlər və müzakirələr yaxşı nəticələr verəcək. İstənilən dialoqda yalnız yoxlanılmış informasiyadan istifadə edin. Bələd olmadığınız məsələlərlə bağlı danışmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Böcəklərin təqribən yarısının nəsli tükənmək üzrədir

**Həvəskar Entomoloqlar Cəmiyyətinin araşdırmaçıları apardıqları araşdırmalar nəticəsində böcəklərin nəslinin təhlükə altında olduğunu ifadə edib. "Deyerler.org" bildirir ki, qurudakı canlıların üçdə ikisini təşkil edən böcəklərin nəsli təhlükə altındadır.**

Araşdırmaçıları ciddi mənada həyəcana salan bu hadisə, qida zəncirinin pozulması ilə yanaşı böcəklərə də ziyan vermək potensialını daşıyır. Həvəskar Entomoloqlar Cəmiyyəti həvəskar kolleksiyaçılar tərəfindən toplanan və cəmi 80 milyona yaxın böcəyə ev sahibliyi edir. Böcəklər, zərər görməmələri üçün etil spirt dolu şüşələrdə qorunur. Cəmiyyətin başçısı Martin Sorq, ənənəvi olaraq entomolojinin nadir növləri yığaraq qurutma əməliyyatı olduğunu köçürdü. 30 illik bir kolleksiyaya sahib olan Həvəskar Entomoloqlar Cəmiyyəti, böcək növlərinin 40%-dən daha çoxunun nəslinin tükənməsi təhlükəsiylə üzləşdiyini bildirdi.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.